

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

"Zəfər Günü Azərbaycan tarixinin ən şərəfli səhifəsidir"


12

SƏS

№ 205 (7130)

6 noyabr 2024-cü il.
Qiyməti 60 qəpik

# Bişkekdə Prezident İlham Əliyevə "Çingiz Aytmatov" ordeni təqdim edilib


2

# Qeyri-müəyyənlik və əsassız ambisiyalar



7

## YAP Mərkəzi Aparatında qanvermə aksiyası keçirilib


5

## Şərqin ilk radiosu: Danışır Bakı- 1 əsrin səs xəzinəsi


8

## Dünyanın gözündən GƏNCƏ


10

## DİQQƏT: Bu həkimlər cinayət məsuliyyətinə cəlb edilə bilər


12

## Qumara görə hər şeyini itirmişdi, son villasını da 10 milyon dollara satışa çıxardı...


15

# Bişkekdə Prezident İlham Əliyevə "Çingiz Aytmatov" ordeni təqdim edilib

***Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 5-də Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşündə iştirak etmək üçün Qırğız Respublikasına səfərə gəlib. Prezident İlham Əliyevi Qırğızıstan Nazirlər Kabinetinin sədri - Prezident Administrasiyasının rəhbəri Akılbek Japarov və digər rəsmi şəxslər qarşılayıblar.***

Həmin gün Bişkekdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə "Çingiz Aytmatov" ordeni təqdim edilib. Dövlətimizin başçısı görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun ev-muzeyinə gəlib. Prezident İlham Əliyev əvvəlcə ev-muzeyi ilə tanış olub. Məlumat verildi ki, muzey Bişkek yaxınlığındakı "Ala-Arça" dövlət iqamətgahında - 1986-cı ildən yazıçının ömrünün son 20 ilini yaşadığı evdə yerləşir. Qırğız xalqının böyük oğlunun vəfatından sonra həyat yoldaşı Mariya Aytmatova və oğlu Eldar ailəsi ilə burada yaşayıblar. Ev-muzeyi Çingiz Aytmatovun həyat yoldaşı Mariya Urmatovna, övladları Eldar və Şirinin təşəbbüsü ilə 2014-cü il dekabrın 12-də açılıb.

Çingiz Aytmatovun kiçik oğlu Eldar yazıçının hələ sağlığında evdə hökm sürmüş bütün ab-havanı və şəraiti ən xırda detala qədər qoruyub saxlamağa çalışıb. Ev-muzeyində yazıçının şəxsi əşyaları, əlyazmaları və çoxsaylı mükafatları qorunub saxlanılır. İkinci mərtəbədə onun kabineti, yataq otağı və kitabxana yerləşir.









Evin ikinci hissəsində Eldar Aytmatov və ailəsi yaşayır. Mədəni-maarif fəaliyyəti ilə məşğul olan Çingiz Aytmatov Beynəlxalq Fondu da burada yerləşir. Fond 2000-ci ildə yazıçının özü tərəfindən təsis edilib, indi onun övladları tərəfindən idarə olunur. Dövlətimizin başçısı ev-muzeyinin xatirə kitabına ürək sözlərini yazdı.

Qeyd edək ki, dünyaşöhrətli yazıçının zəngin bədii irsinə Azərbaycanda da hər zaman böyük maraq olub. Ulu Öndər Heydər Əliyev Çingiz Aytmatovu "Türk dünyasının fəxri" adlandırıb. Prezident İlham Əliyev 2008-ci ildə bir nömrəli "Dostluq" ordenini Çingiz Aytmatova təqdim edib. Azərbaycan və Qırğızıstan prezidentlərinin iştirakı ilə bu il aprelin 24-də Bakı şəhərində Çingiz Aytmatovun abidəsi açılıb. Sonra Prezident İlham Əliyevə "Çingiz Aytmatov" ordeninin təqdim edilməsi mərasimi olub.

Çingiz Aytmatov Fondunun prezidenti Eldar Aytmatov çıxış edib:

-Hörmətli cənab Prezident, hörmətli qonaqlar.

Bu gün mən "Çingiz Aytmatov" ordenini Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə təqdim etmək şərəfinə nail oluram. Bu mükafat dərin hörmətin və yüksək nüfuzun rəmzidir. Bu, humanist dəyərlərin möhkəmləndirilməsinə, mədəni dialoqun dəstəklənməsinə və böyük yazıçımızın yaradıcı irsinin qorunub saxlanmasına Sizin verdiyiniz müstəsna töhfəyə görə minnətdarlıq əlamətidir.

Çingiz Aytmatov yalnız yazıçı deyil, həm də xalqlar arasında sülh, qarşılıqlı anlaşma və birlik ideyalarını təbliğ edən əsl körpü olub. Cənab Prezident, bu gün biz bu prinsiplərin Sizin fəaliyyətinizdə necə təcəssüm etdiyini görürük. Sizin rəhbərliyinizlə Azərbaycan mədəniyyətlərarası mübadilənin və əməkdaşlığın təşəbbüskarı kimi çıxış edir, digər ölkələrlə dinc və yaradıcı münasibətləri təşviq edir.

İcazə verin, xalqlarımız arasında əlaqələrin möhkəmləndirilməsində və Çingiz Torekuloviçin həyatını həsr etdiyi dəyərlərin təbliğində yorulmaz səylərinizə görə Çingiz Aytmatov Beynəlxalq Fondu adından Sizə dərin təşəkkürümü bildirim. İnanırıq ki, Sizin səyləriniz sayəsində Aytmatovun adı bundan sonra da xalqları birləşdirəcək, mədəni tərəqqi və humanizm rəmzi olacaqdır.

Dərin hörmət və qürur hissi ilə Sizə müasir dünyada və ümumi mədəni irsimizin qorunub saxlanmasında oynadığınız rola verilən yüksək qiymətin əlaməti olan "Çingiz Aytmatov" ordenini təqdim edirəm. Sağ olun.

Prezident İlham Əliyev: Sağ olun.

Eldar Aytmatov: İcazənizlə, ordeni təqdim edim.

Prezident İlham Əliyev: Bəli, əlbəttə.

Dövlətimizin başçısına "Çingiz Aytmatov" ordeni təqdim edilib.

Eldar Aytmatov: Qeyd etmək istəyirəm ki, bu bir nömrəli orden Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevə təqdim olunur və həmçinin ilk dəfə Azərbaycanın bir nömrəli "Dostluq" ordeni Azərbaycan Prezidenti tərəfindən Çingiz Aytmatova təqdim edilib. Sağ olun.

Prezident İlham Əliyev:

-Sağ olun. Bu yüksək mükafata görə çox sağ olun. Fəaliyyətimə verilən bu qiymətə görə Çingiz Aytmatov Fonduna, həmçinin onun ailə üzvlərinə və yaxınlarına minnətdarlığımı bildirmək istəyirəm. Həm də bu ordeni onun yaşadığı, işlədiyi, yazıb-yaratdığı, ruhunun indi də dolaşdığı evdə almaq mənim üçün böyük şərəfdir. Mən buraya gələrkən təbii ki, Çingiz Torekuloviçin evinin necə olması barədə fikirləşirdim və məhz orada rahat, isti, yaxşı, yaxınlarının, əzizlərinin əhatəsində olduğu, yaşadığı, işlədiyi və böyük sənət yaratdığı evi gördüm. Onun yaradıcılığı bütün dünyaya məxsusdur. Qeyd etdiyiniz kimi, onun kitabları 185 dilə, demək olar ki, bütün dillərə tərcümə olunub. Bu gün sizdən öyrəndim ki, onun kitablarının yenidən, xüsusən, yeni tərcümədə nəşrinə tələbatın olması onu göstərir ki, Çingiz Aytmatovun həyata, insanlara, təbiətə, öz xalqına münasibətdə sözünə, fikirlərinə ehtiyac var. Sözsüz ki, onun yaradıcılığı bütün mümkün sədləri ötüb keçib və əbədi olaraq oxucuları sevindirəcək, düşünməyə, yəqin ki, bir çox məsələləri yenidən başa düşməyə sövq edəcək. Çünki onun yaradıcılığını çox sevən və bir çox əsərlərini oxuyan insan kimi deyə bilərəm ki, məhz onlar səni düşünməyə, hətta cəmiyyətə, dünyaya, təbiətə, öz fəaliyyətinə nəzər salmağa vadar edir. Atam Heydər Əliyevin dediyi kimi, Çingiz Aytmatov təkcə qırğız xalqının deyil, həm də bütün Türk dünyasının fəxridir. Artıq dediyim kimi, o, dünyaşöhrətli yazıçı, ictimai xadim idi və onun əsərləri müxtəlif mədəniyyətlərə məxsus, müxtəlif qitələrdən olan insanlar tərəfindən başa düşülürdü. Amma, eyni zamanda, onun əsərlərini oxuduqda görürsən ki, Çingiz Aytmatov məhz öz ölkəsinin, öz xalqının problemlərinə dərindən nüfuz edirdi, öz xalqının nümayəndələrini təsvir edirdi. Yəni, o, sırf milli yazıçı idi, eyni zamanda, bütün dünya tərəfindən başa düşülürdü. Zənnimcə, onun mütəfəkkir kimi nadirliyinin sirri də bundadır.

Çingiz Aytmatova Azərbaycanda olan münasibətə gəldikdə, zənnimcə, bu barədə danışmağıma ehtiyac yoxdur. Onu bir insan kimi sevirdilər, onun çoxlu dostu var idi, bir sıra fotoşəkillər onun Azərbaycanın mədəniyyət xadimləri ilə görüşlərini əks etdirir. Həmçinin Heydər Əliyev və Çingiz Aytmatov bir-birinə böyük hörmətlə yanaşırdılar, onların çoxlu görüşləri olmuşdur və mənim atamdan gətirdiyim sitat məhz onun Çingiz Torekuloviçə bəslədiyi hisslərin təzahürüdür.

Ardı Səh. 3





# Bişkekdə Prezident İlham Əliyevə “Çingiz Aytmatov” ordeni təqdim edilib

Əvvəli Səh. 2

Bizim görüşümüzü xatırlayıram, yeri gəlmişkən, 2008-ci ildə görüşümüzü əks etdirən fotoşəkil digərləri ilə birlikdə burada nümayiş etdirilir. Siz də qeyd etdiniz ki, ilk ”Dostluq” ordeni Çingiz Aytmatova təqdim olunub. Həmin vaxt bu orden mənim tərəfimdən, mənim təşəbbüsümlə yenicə təsis olunmuşdu. Açığını desək, düşünürdüm ki, hər halda rəqəmlərdə bir rəmzilik var, fikirləşirdim ki, bu bir nömrəli ordeni kimə təqdim edək.







Sözsüz ki, ilk ağlıma gələn o oldu ki, onu Türk dünyasının hər hansı bir nümayəndəsinə verək. Sonradan sanki fikirlər ard-arda gəldi və qərar verildi. Bəlkə də bədahətən oldu, amma digər tərəfdən, bədahətən verilən bütün qərarlar bundan əvvəlki həyatda, öncəki zamanda sənin tərəfindən dərindən düşünülüb. Ona görə də bu, tamamilə şüurlu, yeganə düzgün qərar idi. O da bizim üçün xüsusi qürur mənbəyidir ki, bir nömrəli ”Dostluq” ordeni Çingiz Torekuloviçə təqdim edilib. Mən bu il Bakıda onun abidəsinin açılışında çıxış etdim. Çingiz Aytmatovun heykəli mərkəzi küçələrdən birində ucaldılıb. Mən dedim ki, onun tezliklə aramızda olmayacağını güman etmirdik. Çünki o, Bakıya yaxşı əhvali-ruhiyyədə gəlmişdi, biz onunla çoxlu söhbət etdik, o, gələcək planlarından danışırdı, çox yaxşı görünürdü, mən buna ürəkdən sevindim. Amma bir neçə aydan sonra o, vəfat etdi. Əlbəttə, bu, kədər hissi doğurur, çünki o, hələ yaşaya, öz yaxınlarını sevindirə, onları qayğısı və şəfqəti ilə əhatə edə, həmçinin məhz bu gün aktual olan xeyli sayda əsər yarada bilərdi. Çünki onun bu dünyadan köçdüyü vaxtdan bəri həm bizim regionumuzda, həm də dünyada çoxlu hadisələr baş verib, zənnimcə, onun sözü çox mühüm olardı, təkcə bizim regionumuz üçün deyil, həm də ümumilikdə dünya siyasəti üçün. Çünki o, yaradıcılıq fəaliyyəti ilə yanaşı, həmçinin çox nüfuzlu ictimai xadim idi.

Məni Çingiz Torekuloviçin ocağına dəvət etdiyiniz, bu mükafata layiq gördüyünüz üçün sizə bir daha təşəkkür etmək istəyirəm. Sizi yaxın vaxtlarda Bakıya dəvət etmək, ailənizlə, Çingiz Torekuloviçin balaca davamçıları ilə birlikdə qonağımız olmağınızı istəyirəm. Onun abidəsini ziyarət etsinlər və onu tanıyanlarla, sevənlərlə ünsiyyətdə olsunlar. Bir daha təşəkkür edirəm.

Eldar Aytmatov: Çox sağ olun.

Daha sonra Prezident İlham Əliyev və Çingiz Aytmatovun ailə üzvləri birgə çay süfrəsi arxasında söhbət ediblər. Sonda qarşılıqlı xatirə hədiyyələri təqdim olunub.

# “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin ”Zəfər” kitabı çapdan çıxıb

**“İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin xüsusi buraxılışı olan ”Zəfər” kitabı nəfis tərtibatla çapdan çıxıb. Xüsusi buraxılışda yer alan materiallar 44 günün xronikasını - 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan dövrü əhatə edir. Nəşrdə 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müqəddəs savaşın ilk dəqiqələrindən Zəfər Gününədək möhtəşəm fəaliyyətindən bəhs edilir.**

Kitab Prezident İlham Əliyevin Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən yaşayış məntəqələrimizi, hərbi mövqelərimizi ağır artilleriya silahlarından şiddətli atəşə tutduqdan dərhal sonra - sentyabrın 27-də saat 12:45-də Azərbaycan xalqına müraciətinin mətni ilə başlayır. ”Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!” - deyən Prezident İlham Əliyev bu müraciəti ilə Azərbaycanın igid oğullarını torpaqlarımızı işğaldan azad etməyə daha da ruhlandırdı, onları səfərbər etdi, xalqda qələbəyə inam yaratdı.

”Zəfər” kitabında Azərbaycan Prezidentinin 44 gün ərzində müxtəlif ölkələrin dövlət və hökumət başçıları ilə telefon danışıqları, videomüraciətləri, aparıcı xarici media orqanlarına müsahibələri, hər bir yaşayış məntəqəmizin azad olunduğu müjdə xəbərləri, sosial şəbəkə hesablarında paylaşımları xronoloji ardıcıllıqla təqdim edilib. Nəşrə 44 gündə rəşadətli Ordumuzun, qəhrəman əsgər və zabitlərimizin işğaldan azad etdikləri şəhər və kəndlərin, yaşayış məntəqələrinin, həmçinin erməni qəsbkarlarından götürülmüş qənimət silah-sursatların da siyahısı daxil edilib.

Vətən müharibəsində qazanılan Zəfərin dördüncü ildönümü ərəfəsində təqdim olunan bu nəşr adi kitab deyil, bir dərslikdir - dövlətçilik, vətəndaşlıq, Vətənə sevgi və xidmət dərsliyidir!

Kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından və arxivindəki fotolardan istifadə edilib.




Dövlətimizin başçısının 2020-ci il noyabrın 10-da xalqa müraciətində vurğuladığı kimi, hər kəs bizim gücümüzü gördü, hər kəs bizim dəmir yumruğumuz nədir, anladı. ”Qarabağ Azərbaycandır və nida!” ifadəsi artıq bizim qələbəmizin rəmzidir: ”Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!”

Vətən müharibəsində qazanılan Zəfərin yaratdığı reallıqlar regionda bütün sahələrdə özünü göstərir. İşğaldan azad edilmiş ərazilərimizdə bu gün aparılan bərpa və quruculuq işləri, ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın uğurla reallaşdırılması, Şuşada keçirilən beynəlxalq tədbirlər Azərbaycan dövlətinin gücünü, xalqımızın əzmini bütün dünyaya bir daha nümayiş etdirir.

# Haqq savaşımızın tarixi Zəfəri




Otuz ilə yaxın bir zamanda erməni işğalında olan torpaqlarını azad edən Azərbaycan bu gün yeni bir dövrünə qədəm qoyub. Bütün dünyaya, məsafəsindən, qitəsindən asılı olmayaraq, hər bir kəsə öz böyüklüyünü, gücünü göstərdi. Əlbəttə ki, ordumuzun gücü, xalqımızın qəhrəmanlığı, xalq-iqtidar birliyi və ən əsası da Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün dünyanı təəccübləndirən 44 günlük Vətən müharibəsində Zəfər tariximizi yazdıq. 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfər nəticəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, mədəniyyət beşiyi olan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsi ilə yanaşı, bir çox kəndlərini, həmçinin Tərtər rayonunun Suqovuşan qəsəbəsini, Xocalı və Laçın rayonunun bir neçə kəndləri də daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətində mühüm strateji yüksəklikləri işğaldan azad etdi. Azərbaycan Ağdam, Laçın və Kəlbəcər rayonlarını isə bir güllə belə atmadan öz sahiblərinə geri qaytardı. Bu böyük Zəfər Azərbaycan Respublikasının dövlətçilik tarixinə qızıl hərflərlə yazıldı.

Vətən müharibəsindən sonra ən qanlı toqquşma isə 2022-ci ilin 12-14 sentyabr tarixlərində baş vermişdir. Bu döyüşlərin səbəbi isə Ermənistan silahlı qüvvələri bölmələrinin 2022-ci il sentyabrın 12-dən 13-nə keçən gecədən başlayaraq Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törətməsi idi.

Daha sonra, 2023-cü ilin martında Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni şəkildə Şuşa istiqamətində təxribatlar törətmiş, aprel və may ayında isə şərti dövlət sərhədi istiqamətində Azərbaycan Ordusunun mövqeləri atəşə tutulmuşdur.

## ”AZƏRBAYCAN ƏSGƏRİ, ZABİTİ HƏM YÜKSƏK PEŞƏKARLIQ, HƏM DƏ YÜKSƏK MƏNƏVİ KEYFİYYƏTLƏR GÖSTƏRMİŞDİR”

Daha sonra Silahlı Qüvvələrimiz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə daha bir missiyanı uğurla yerinə yetirdi. Azərbaycan Ordusu Azərbaycanın Qarabağ iqtisadi rayonunda keçirdiyi antiterror tədbirlərini uğurla başa çatdıraraq separatçıları təslim olmağa məcbur etdi. Dövlətimizin başçısının ötən ilin sentyabrın 20-də növbəti tarixi qələbəmizlə bağlı xalqa müraciəti hər birimizi qürurlandırdı. Təqribən, bir gün davam edən antiterror tədbirlərinin uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini tam bərpa etdi. Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində qeyd etdiyi kimi, ordumuzun, bütün Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır və bir daha Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir.

Qeyri-qanuni erməni ordusu Qarabağ ərazisindən tərkisilah edildi və Azərbaycan öz dövlət suverenliyini tam və qəti şəkildə bərpa etdi. ”Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir. Aparılmış qısamüddətli lokal xarakterli antiterror tədbirləri nəticəsində düşmənin silah və texnikalarının böyük hissəsi sıradan çıxarılmışdır”, - deyə Prezident bildirmişdir.

”Azərbaycan ərazisində Ermənistan ordusuna məxsus qanunsuz olaraq yüzdən çox tank və zirehli nəqliyyat vasitələri, zirehli texnika yerləşdirilmişdir. Radioelektron mübarizə vasitələri yerləşdirilmişdir. İki yüzündən çox top artilleriya qurğuları, hava hücumuna qarşı ən müasir qurğular yerləşdirilmişdir. 10 noyabr 2020-ci il üçtərəfli Bəyanata zidd olaraq Ermənistan üç il ərzində öz silahlı qüvvələrini canlı qüvvəsini və texnikanı bizim ərazimizdən çıxarmamışdır”, - deyən dövlətimizin başçısı dəfələrlə bu məsələyə qayıdaraq Azərbaycan dövlətinin haqlı narazılığını ifadə etdiyini diqqətə çəkmişdi. Bu əməliyyatlar nəticəsində Xankəndi, Xocalı, Ağdərə və digər strateji şəhərlər üzərində tam nəzarət təmin edildi, üçrəngli dövlət bayrağımız azad edilmiş bütün ərazilərimizdə dalğalandırıldı.

Artıq ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün bərqərar olunmasından bir il ötür. Bölgəmizdə yeni vəziyyətin yaranmasının labüd olduğunu diqqətə çatdıran dövlətimizin başçısı qeyd edib: ”Çünki kriminal xunta rejimi təslim olandan sonra artıq bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də nəhayət rahat nəfəs ala bilər”.

## REALLIQLAR GÖZ YADDAŞLARINDA

30 il erməni işğalında qalan ərazilərimizdə erməni vandalların törətdikləri vəhşiliklərin nəticəsində yurd yerləri dağıdılmış, viran qoyulmuşdur. Əqli mülkiyyətimizə, maddi mədəniyyət abidələrimizə böyük ziyan dəymişdir. Bunu dünyanın istənilən bir ölkəsindən gələn və Qarabağa səfər edən dinindən, irqindən asılı olmayaraq, insanlar görmüş olur. Bu gün də işğaldan azad olunan ərazilərimizə edilən səfərlər zamanı hər qarışda rast olunan vandallığa insanlar qəzəb və nifrəti ifadə edirlər. Qarabağ, eyni zamanda onun ətrafında yerləşən Azərbaycan ərazilərində Birinci və İkinci Qarabağ müharibələri zamanı qismən və ya tamamilə dağıdılmış, talan edilmiş və ya hər hansı bir şəkildə zərər çəkmiş tarix-memarlıq abidələrimiz əlbəttə ki, tədricən bərpa və təmir olunur və olunacaqdır.

Birinci Qarabağ müharibəsində ermənilər azərbaycanlıların geri dönməməsi üçün evləri yandırmışdılar. Ermənilər təkcə Şuşadan olan üç azərbaycanlı musiqiçi və şairin tarixi büstlərini də söküb satmışdır. Hələ 2005-ci ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının araşdırma missiyası Füzuli şəhərinə səyahət etdikləri zaman şəhərin xarabalıq olduğunu bildirmişdilər.

Vətən müharibəsindən sonra dünya ölkələrindən ölkəmizə gələnlər öz gözləri ilə baş verən hadisələrin, vandallığın acı nəticələrini görmüş olurlar. Dünya səyyahlarının işğaldan azad edilən ərazilərə səfər edərək 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun böyük qəhrəmanlığı nəticəsində azad olunan məkanlar ətrafında məlumat alır, bütün reallıqları göz yaddaşlarına çevirirlər. Səyyahların göz yaddaşına hopan tarixi faktlar sivil dünyanın gözü qarşısında baş verib. Məlumdur ki, İslam Konfransı Təşkilatının qətnaməsində üzv dövlətlərin ”işğal olunmuş Azərbaycan ərazilərində arxeoloji, mədəni və dini abidələrin (İslam abidələri də daxil olmaqla) talan və məhv edilməsindən” narahat olduqları bildirilmişdir. Azərbaycan ərazisində etnik təmizləmə məqsədi ilə Azərbaycan məscidlərinin və digər İslam ziyarətgahlarının tamamilə və vəhşicəsinə məhv edilməsinin insanlığa qarşı cinayət olduğu bir daha təsdiqlənmişdir. Qətnamədə Ermənistan Respublikasının işğal etdiyi Azərbaycan ərazilərində Ermənistanın İslam irsinə təcavüzü nəticəsində, o cümlədən nadir qədim əsərlərin və İslam sivilizasiyasının, tarix və memarlıq abidələrinin, məscidlər, türbələr, məzarlar, arxeoloji qazıntılar, muzeylər, kitabxanalar, rəsm sərgi salonları və hökumət teatrları və konservatoriyalar, çoxlu miqdarda qiymətli xəzinələrin və milyonlarla kitabın və tarixi əlyazmanın məhv edilməsi və qaçaqmalçılıq yolu ilə ölkədən çıxarılması işğal olunmuş Azərbaycan ərazilərində İslam irsini tamamilə məhv etmək cəhdi kimi tanınmış və Azərbaycanın özünə vurulan ziyana görə adekvat təzminat almaq hüququ təsdiqlənmişdir. İşğal dövründə məscidlər, kitabxanalar, tarixi abidələr də daxil olmaqla Azərbaycan irsinə daxil olan abidələrin ermənlər tərəfi tərəfindən dağıdılmışdır. Şuşa qəbiristanlıqları və mövcud olmuş 67 məsciddən 65-i məhv edilmişdir.

Qədim tarixə malik onlarla memarlıq və incəsənət abidələri dağıdılıb, təhqir edilib və yaxud tarixi saxtalaşdırılıb. İlk yaşayış məskəni kimi eramızdan əvvəl I minillikdə yaranan Ağdam şəhərində bəzi tarixi abidələrin tarixi eradan əvvələ gedib çıxır.

Üçoğlan kəndindəki abidələrin çoxu eneolit dövrünə aiddir. Bundan başqa, Ağdamda 14-cü əsrə aid bir sıra türbələr mövcuddur. 10-dan çox kənddə isə alban tarixini əks etdirən abidələr var. Tarixi mənbələrə istinadən deyə bilərik ki, 1868-70-ci illərdə iki minarəli və iki mərtəbəli Ağdam Cümə məscidi, XVIII əsrə aid Pənah xanın imarəti, Şahbulaq kəndində XVIII əsrə aid iqamətgah, Karvansara və bürc qalaları tarixin Ağdama bəxş etdiyi memarlıq abidələridir. Hesablamalara görə, Ağdamın tarix və mədəniyyətinə 4 milyard dollardan çox ziyan dəyib. Bu məbləğin artacağı istisna edilmir.

## AZƏRBAYCAN ÖZ MİLLİ İRSİNƏ SAHİBDİR

Ağdam rayonu ərazisindəki Qutlu Musa türbəsi baxımsızlıqdan qəzalı vəziyyətə düşmüş, türbənin fasadlarını bəzəyən unikal divar rəsmləri boyanaraq məhv edilmiş, interyerindəki oyma naxışlı daş plitələri isə dağıdılmışdır. Şuşa şəhərinin tarixi mərkəzində yerləşən abidələr şəhərin 90-cı illərdə ermənilər tərəfindən bombardiman edilməsi zamanı ciddi zədə almışdır. 1992-ci ildə şəhərin ermənilər tərəfindən işğal edilməsindən sonra burda olan İslam memarlıq nümunələrinin hamısı tamamilə və ya qismən dağıdılmışdır.

XIII əsrə aid Gəncəsər monastırı 1990-cı illərdə erməni silahlı birləşmələri tərəfindən məşvərət yeri və silah anbarı kimi istifadə edilmiş və monastırın fasadına qismən zərər dəymişdir. 2011-ci ildən etibarən monastırın fasadlarının memarlığına müdaxilə edilmiş, kompleksi əhatə edən qala divarları müasir daşlarla üzlənmişdir. 1992-ci ildə Laçın rayonunun işğal edilməsi ilə ermənilərin nəzarəti altına keçən Sisərnəvəng monastırı 1999-2000-ci illərdə əsaslı təmir edilmiş, bu zaman abidənin dam örtüyü, fasadları və interyerində ciddi dəyişikliklər edilmişdir. 2020-ci il atəşkəs bəyanatına əsasən, Laçın rayonu ərazisini tərk edən ermənilərin monastırın həyətində yerləşən VI-IX əsrlər və sonrakı dövrlərə aid bədii təsvirli daşlar və xaç daşları aparmalarını əks etdirən fotolar sosial mediada yayımlanmışdır.

Dünya əhəmiyyətli tarix-memarlıq abidələri arasında ən çox ziyan çəkəni e.ə. II minilliyin sonlarına aid olan və Orta Tunc dövrü insanlarının yaşayış izlərini daşıyan Üzərliktəpə arxeoloji abidəsidir. 1993-cü ildən ermənilərin işğalı altında olan abidə ərazisi işğal dövründə mütəmmadi olaraq hər il ermənilər tərəfindən yandırılmışdır. Mil düzünün arxeoloji cəhətdən tədqiq olunmuş yeganə qədim yaşayış yeri Üzərliktəpədir. Bu abidə Ağdam şəhərindən şərqdə, coğrafi cəhətdən əlverişli mövqedə yerləşir. 1954-cü ildə Üzərliktəpədə arxeoloji qazıntı işləri aparılıb. Qazıntılar nəticəsində məlum olub ki, hazırda yüksəkliyi 6-7 m. olan Üzərliktəpə təxminən eradan əvvəl II minilliyin sonunda cəmi 3,5 m hündürlüyündə olmuşdur. Həmin dövrdə Üzərliktəpənin üstündə yerli sakinlər yaşayış məskəni salmışdılar.

Mənbələrdən məlumdur ki, 1965-ci il qazıntıları zamanı Üzərliktəpədən ”hərəkət edən ocaq”, yəni gildən düzəldilmiş və bir yerdən başqa yerə aparılması mümkün olan manqalvarı kürəcik də tapılmışdır. Buradan aşkar edilmiş maddi mədəniyyət qalıqları içərisində gil qablar xüsusilə çoxluq təşkil edir. Üzərliktəpədən aşkara çıxarılmış daha bir tapıntı elmi baxımdan son dərəcə maraqlı olub, sakinlərin dini ideologiyasını öyrənmək üçün böyük əhəmiyyət kəsb edir. Bu tapıntı qadın bütüdür. Üst təbəqədə daşdan düzəldilmiş ocağın içərisindən tapılmış büt, yerli əhali arasında bütpərəstliyin yayıldığını sübut edir. Ümumiyyətlə, Azərbaycan ərazisində hələ Eneolit dövründə müşahidə edilən bu dini təsəvvür sonralar inkişaf edərək antik dövrdə bir növ hökmran rol oynamışdır. Bu dövrdə qadın bütləri çoxluq təşkil edir ki, bu da ananın nəslartırma rəmzi və ya ona həyatın başlanğıcı kimi baxılması ideyasından irəli gəlmişdir. Arxeoloqlar müəyyən etmişlər ki, Üzərliktəpədə yaşayış eradan əvvəl I minilliyin sonunda kəsilmişdir.

Tariximizin daş yaddaşı olan bu və ya digər abidələrimiz erməni təcavüzkarlığı nəticəsində dağıdılıb, təhqir edilsə də, Azərbaycan öz milli irsinə sahibi olduğunu Zəfəri ilə dünyaya bəyan etdi. Artıq tarixi abidələrimiz öz görkəmlərini alırlar.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP Mərkəzi Aparatında qanvermə aksiyası keçirilib

***Noyabrın 5-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının inzibati binasında qanvermə aksiyası keçirilib. Aksiya YAP Mərkəzi Aparatı və Səhiyyə Nazirliyinin Respublika Qan Bankının birgə təşkilatçılığı ilə baş tutub. Qanvermə aksiyasına Respublika Qan Bankını təmsil edən tibbi heyət cəlb olunub.***

Respublika Qan Bankının həkimi Günel Mehdiyeva bildirib ki, aksiyanın məqsədi talassemiya, irsi qan və digər xəstəliklərdən əziyyət çəkən insanlara yardım etməkdir.

Yeni Azərbaycan Partiyasının davamlı olaraq qanvermə aksiyası təşkil etdiyini xatırladan G.Mehdiyeva bu təşəbbüsün humanist xarakter daşıdığını qeyd edib: ”Qanvermənin insan sağlamlığına bir çox faydaları var. Burada toplanan qanlar Respublika Qan Bankında müayinə olunacaq və aidiyyatı üzrə istifadə ediləcək. Belə bir xeyirxah təşəbbüsə görə partiyanın rəhbərliyinə, Mərkəzi Aparatına və əməyi keçən hər kəsə təşəkkürümüzü bildiririk”.

Qeyd edək ki, aksiyada partiyanın Mərkəzi Aparatının əməkdaşları da daxil olmaqla 300-dən artıq YAP üzvü iştirak edib.









## ”Bakcell” ”Birbank” istifadəçilərinə xüsusi üstünlüklər verən ”Birinci” tarifini təqdim edir

İnnovasiya və sürət lideri ”Bakcell” ölkənin ilk rəqəmsal bankı”Birbank” ilə əməkdaşlıq çərçivəsində yeni ”Birinci” tarif paketini təqdim edir. Abunəçilər ”Birbank”mobil tətbiqinə ”Bakcell” nömrəsi əlavə etməklə ”Birinci” tarifinə qoşula, onu idarə edə və dərhal ”Trendyol”, ”Umico”, ”Birbank” və ”M10” kimi platformalarda xüsusi üstünlüklərdən yararlana bilərlər. ”Birinci” tarifi daxilində ”Bakcell” müştərilərinə ölkədaxili zənglər üçün dəqiqələr, əsas internet balansı, sosial şəbəkələr üçün əlavə internet balansı təqdim olunur. Bundan əlavə, tarifə qoşulan abunəçilər ”Trendyol”da alış-veriş zamanı ayda 2 dəfə 10% endirim və ödənişsiz ”Umico Premium” abunəliyi əldə edəcəklər. Eyni zamanda, müştərilər ”Birbank” kartları ilə əməliyyatlar və ”m10”la QR ödənişlər zamanı əlavə keşbek qazanacaqlar. ”Birinci” tarifinin başlanğıc qiyməti 6.9 AZN-dir.




Qeyd edək ki, ”Bakcell” abunəçiləri ”Birinci” tarifinə yalnız ”Birbank”mobil tətbiqi vasitəsilə qoşula bilərlər. Tarif paketi ilə bağlı ətraflı məlumatı ”Bakcell” və ”Kapital Bank”ın rəsmi saytlarından və ya sosial şəbəkə hesablarındanəldə etmək olar. Gələcəyə hədəflənən yeni brend strategiyası ilə ”Bakcell” ölkəmizdə abunəçilərə innovativ xidmət və məhsullar təqdim edir. Şirkət qarşıdakı dövrdə bir sıra yeni məhsulları abunəçilərinin ixtiyarına verəcək.

”Bakcell” haqqında

”Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda ”Bakcell” üç milyondan çox müştərini yüksək keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir. ”Bakcell” müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən ”NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

## ”Nar”ın dəstəyi ilə ekologiya mövzusunda jurnalistlərə beynəlxalq təlim keçirilib

Ölkənin ən sərfəli mobil operatoru ”Nar” sosial məsuliyyət prinsiplərinə uyğun olaraq, COP29 ərəfəsində jurnalistlər üçün ekologiya mövzusunda təlimin keçirilməsinə dəstək olub.”Azərbaycan Jurnalistlər Şəbəkəsi” İB-nin təşkilatçılığı ilə COP29 konfransına hazırlıq məqsədilə keçirilən bu təlimdə yerli peşəkar jurnalistlər iştirak edib. Təlimi iqlim mövzusu üzrə beynəlxalq təcrübəli ekspert və COP konfranslarının daimi iştirakçısı Tais Gadea Lara aparıb. O, iqlim mövzusunda çoxsaylı beynəlxalq tədbirlərdə iştirakı ilə əldə etdiyi bilik və təcrübəni bölüşərək jurnalistlərə ekologiya mövzusunda məlumat toplama və araşdırma üsullarını təqdim edib.




Peşəkar təlimçi media əməkdaşlarına qlobal istiləşmə, iqlim dəyişikliyi ilə mübarizə istiqamətində effektiv layihələrin hazırlanması və onların büdcəsinin düzgün idarə olunmasının əhəmiyyəti barədə geniş məlumat verib. Jurnalistlər iqlim dəyişikliyi ilə bağlı mövzuların mediada işıqlandırılması üçün yeni biliklər və peşəkar yanaşmalar əldə ediblər.

”Nar” bu layihəyə dəstək verərək ekologiya mövzusu üzrə maarifləndirmə və iqlim dəyişiklikləri ilə mübarizədə medianın rolunu gücləndirməyə töhfə verir. Layihə həm də şirkətin ESG (Ətraf mühit, Sosial məsuliyyət və Korporativ idarəetmə) prinsiplərinə uyğun fəaliyyətini və COP29-un məqsədlərinə dəstəyini göstərir. Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən ”Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Müharibələr:

## öldürülən heyvanlar və məhv edilən ekosistem

***Müharibələrin, təbii fəlakətlərin, insanın səbəb olduğu bir çox qarşıdurmanın nəticəsində bütün dünyanın yalnız 3 faizi ekoloji cəhətdən toxunulmaz olaraq qalır. Ekoloji cəhətdən bütövlük, sağlam nəsil artıran və heç bir şəkildə müdaxilə edilməmiş yaşayış mühitinə malik bütün heyvan növlərinin mövcudluğu kimi xarakterizə edilir. İnsan faktoru nəticəsində zərər görməyən bu təmiz ərazilər Amazonda, Konqonun tropik meşələrində, Şərqi Sibir və Kanadanın şimalındakı meşə və tundralarda, Mərkəzi Afrikada yerləşir. Araşdırmaya görə, Avstraliyada pişik, tülkü, dovşan, keçi və dəvə kimi invaziv növlərin yerli heyvan növlərinə böyük təsir göstərdiyi ekoloji cəhətdən bütöv ərazi yoxdur.***

2001-ci ildən etibarən BMT Baş Assambleyası 6 Noyabr tarixini Müharibə və silahlı münaqişələr zamanı ətraf mühitin istismarının qarşısının alınması Beynəlxalq Günü elan edib. Bu gün, insanları müharibə və münaqişələrin insan təlafatı ilə yanaşı həm də ətraf mühit üçün yaratdığı təhlükələr barədə məlumatlandırmaq məqsədi daşıyır.



### Müharibədən tək insanlar zərər görmür



Bütün müharibələr insanlar üçün faciəvidir - həm günahsız, həm də günahı olan tərəflər üçün. Müharibələrin insanlar üçün nə qədər dəhşətli nəticələri olduğunu bilirik və bu barədə həmişə danışırıq. Ancaq təəssüf ki, digər fəlakətlər kimi, müharibənin bizdən başqa heyvanlara, ekosistemə və planetə təsirləri də çoxdur və barədə çox az danışılır. Müharibələr təkcə insanları öldürmür, planetdə yaşayan bütün canlıları məhv edir.

Müharibələrin iqlim problemləri ilə birbaşa əlaqəsi var. Müharibələrin iqlim problemlərinə təsirini araşdıran "Münaqişə və Ətraf Mühit Rəsədxanası" qurumunun məqaləsinə əsasən, karbon emissiyalarına birbaşa və dolayısı ilə səbəb olan səbəblər sıralanıb. Bilavasitə təsir edən səbəblər arasında neft anbarları, hasilat sahələri və boru kəmərləri müharibədə ilk hədəf alınan yerlərdən biridir. Bir ölkə başqa bir ölkə ilə müharibə edərkən ilk növbədə neft bazalarına, təbii qaz xətlərinə zərbə endirməsi, orada zəhərli qaz sızması və yanğınlar olması xəbərini çox görmüşük. Bu yanğınlar təbii ki, böyük karbon qazı emissiyalarına səbəb olur.

Həmçinin, bitki örtüyünün və meşələrin yandırılaraq məhv edilməsi, bununla da iqlimə birbaşa təsir edən başqa bir müharibə fəsadıdır. Məsələn, Vyetnam müharibəsi zamanı kimyəvi maddələrdən istifadə edilərək meşələrin məhv edilməsi nəticəsində ümumi meşə sahəsinin 44%-nin məhv edildiyi bildirilirdi. Təbii ki, bu, meşələrdə yaşayan milyonlarla canlının da yox olması deməkdir. Müharibədən sonrakı vəziyyətə nəzər saldıqda, ərazidə idarəetmənin zəifləməsi və iqlim-ətraf mühit ilə əlaqədar görülən tədbirlərin əhəmiyyətini itirməsi səbəbindən daha çox çirkləndirici variantlara əl atıldığını görürük.

Məsələn, Yəmən, Liviya və Suriya kimi münaqişə bölgələrində böyük miqdarda neftin yandırılması nəticəsində $CO_2$-nin atmosferə buraxılması hadisələri var. Ukraynanın müharibə dövründə su qıtlığı səbəbindən ekoloji zərər görməsi halları da istisna deyil. Buna görə də müharibə və qarşıdurmalar həm qısa, həm də uzunmüddətli perspektivdə ekologiyaya, bitki örtüyünə, canlılara müxtəlif növ birbaşa və dolayı ziyan vurur. Müharibədən sonra, xüsusən də dağıdılmış şəhərlərin yenidən qurulması və torpaqlardan istifadənin dəyişməsi səbəbindən ekoloji problemlər davam edir.

### Silah sənayesi təbiəti məhv edir





Başqa bir məsələ də budur ki, silahlanma və müharibə sənayesi hətta sülh dövründə belə planetə ən çox ziyan vuran sahələrdən biridir. Silahların istehsalı zamanı müəssisələrin atmosferə ötürdüyü karbon qazı ciddi problemlərə səbəb olur. Məsələn, bu səbəblə Pentaqon, İsveç, Norveç və Finlandiyadan daha çox karbon qazı buraxır. 2017-2018-ci illərdə Böyük Britaniya ordusunun yaratdığı tullantılar 60 ölkənin ümumi emissiyalarından çox olub. ABŞ ordusu 140 digər ölkənin ordusunun cəmindən daha çox karbon emissiyası istehsal edir. Bundan əlavə, hərbi obyektlərin yerləşdiyi yerlərdə torpaq və içməli su ehtiyatları təhlükəli kimyəvi maddələrlə (arsen, qurğuşun, asbest kimi) zəhərlənir. Bunlar həm insanlar, həm də təbiətdəki digər canlılar üçün böyük risklər yaradır.

Müharibələr tarix boyu biosferi dəyişmək potensialına malik dağıdıcı qüvvə olub. Bu mənfi təsirlər təkcə birbaşa münaqişələr nəticəsində deyil, həm də nüvə silahları, hərbi təlimlər və hərbi sahə ilə əlaqəli çirkləndiricilər kimi baş verir. Məsələn, bomba atıldığı zaman həmin ərazidəki insanlarla bərabər heyvanlar da dəhşətli şəkildə öldürülür, həmçinin yaşayış mühiti dəyişir, atılan bombanın səbəb olduğu kimyəvi çirklənmə, bombanın yaratdığı yüksək desibelli səslər heyvanların ölümlərindən əlavə fizioloji və psixoloji problemlər yaşamasına səbəb olur, biomüxtəlifliyin azalması, növlərin nəslinin kəsilməsi və s. ilə nəticələnir. Dənizdən olan hücumlarda sualtı partlayıcıların istifadə və səs dalğaları dənizin altında yaşayan heyvanların həyatına ciddi təsir edən vəziyyətlərdir. Bu partlayışlar zamanı yaranan təzyiq səbəbindən su altında yaşayan heyvanların ölümünə və ya ciddi zədələnməsinə səbəb olur.

Bununla belə, müharibə zamanı vəhşi təbiətdə qənimət ovuna çıxanlar da az deyil. Məsələn, Mozambikdə baş verən qarşıdurmalar zamanı döyüşən tərəflər zaman-zaman Qoronqosa Milli Parkında qənimət ovuna da çıxaraq buynuzu qiymətli keyvanları öldürərəq buynuzunu qənimət kimi kəsib götürüblər.

### Qarabağdakı minalar nadir heyvan növlərini məhv edir

Qarabağ müharibəsi zamanı ermənilərin Qarabağ ərazisində basdırdıqları çoxsaylı minalara insanlarla bərabər vəhşi təbiətin nadir növdən olan heyvanları da düşür. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bir müddət əvvəl sosial şəbəkədə Laçın rayonunda Ermənistan tərəfinin basdırdığı minanın detonasiyası nəticəsində ölən ayı balasının qalıqlarının görüntülərini də paylaşmışdı. Prezidentin köməkçisi həmin paylaşımda belə yazmışdı:

"Danışan Şəkillər! Azərbaycanın işğaldan azad edilmiş Laçın rayonunda minanın partlaması nəticəsində həlak olan qonur ayı balasının qalıqları. Partlayış sahəsindən toplanmış minaların damğaları onların 2021-ci ildə Ermənistanda istehsal olunduğunu göstərir. Ermənistan Azərbaycanın əvvəllər işğal olunmuş torpaqlarını milyonlarla mina ilə çirkləndirib və bu mina mülki əhalinin, habelə vəhşi heyvanların həyatını təhlükə altına almaqda davam edir".

Rəsmi məlumatlara görə, 2020-ci ildə Ermənistan Respublikasının işğalından azad edilmiş və 2023-cü ildə Ermənistan silahlı qüvvələrinin hərbi birləşmələrinin, terror qruplarının qalıqlarından təmizlənmiş Azərbaycan Respublikasının ərazilərində - Qarabağ və Şərqi Zəngəzurda 1 milyondan çox mina və partlamamış hərbi sursatın mövcud olması ehtimal olunur. Təxminən Livan boyda olan bu ərazi dünyanın mina ilə ən çox çirklənmiş sahələrindən biri hesab olunur.

Qarabağ və Şərqi Zəngəzurda mina qurbanı olan heyvanlar içərisində nəsli kəsilməkdə olan Beynəlxalq Qırmızı Siyahıda olan növlər də var. Ermənistan Respublikası tərəfindən heyvanlara, vəhşi faunaya qarşı sərgilənən bu cür qəddar münasibət yolverilməzdir. Cənubi Qafqaz kimi biomüxtəliflik cəhətdən zəngin bir regionun nadir təbiət inciləri, heyvanları bu cür rəftara məruz qalmamalıdır. Azad edilmiş ərazilərdə ekoloji fəlakət ürək ağrıdır. 30 illik işğal dövründə ərazidə xeyli sayda meşələrin qırılması və ya yandırılması, torpaq və su hövzələrinin qanunsuz dağ-mədən sənayesi işləri nəticəsində kimyəvi cəhətdən çirkləndirilməsi heyvanlara qarşı da kütləvi qırğındır.

***Lalə Mehralı***

# Qeyri-müəyyənlik və əsassız ambisiyalar

***Ermənistanın 2025-ci il üçün nəzərdə tutulan dövlət büdcəsi layihəsi qeyri-müəyyənliklərlə doludur və ambisiyalar da öz növbəsində nəzərə çarpacaq dərəcədədir. Belə, bu şəkildə qeyri-müəyyənliklər və ambisiyalar erməni cəmiyyətində də rezonans doğurub, hətta müzakirələrə də səbəb olub. Xüsusən də işğalçı ölkə hökumətinin dövlət xərclərini əhəmiyyətli dərəcədə artırmaq, onun ÜDM-ə nisbətini qarşıdan gələn ildə, 2025-ci ildə cari ildəki 30,4%-dən 31,5%-ə çatdırmağı planlaşdırması şübhə ilə qarşılanıb. Dəqiq rəqəmlərlə ifadə etsək, bu, xərclərin təxminən 406 milyard dram, yəni, 1,05 milyard dollar artması deməkdir ki, buna heç ermənilər özləri də inana bilmirlər və mümkünsüz olduğunu açıq şəkildə bildirirlər.***




## Büdcə layihəsi ilə bağlı qeyd olunan rəqəmlər reallıqla heç də üst-üstə düşəcək görünmür

Hələ də özünə gələ bilməyən və heç bir beynəlxalq və regional layihədə iştirak etməyən Ermənistanın dövlət büdcəsi layihəsinə əsasən, guya 2025-ci ildə dövlət büdcəsinin gəlirləri 2 trilyon 873 milyard dram, yəni, təxminən 7,39 milyard ABŞ dolları təşkil edəcək ki, məhz bu rəqəm reallıqla heç də üst-üstə düşəcək görünmür. Xatırladaq ki, qeyd olunan bu göstərici 2024-cü ildə gözlənilən gəlirdən 11%, eləcə də 2023-cü ilin faktiki gəlir səviyyələrindən 22% çoxdur. Maraqlıdır, belə bir artımı iddia edənlər nəyə əsaslanırlar və nəyə güvənə bilərlər axı? Bunun üçün heç bir əsas ortada yoxdur. Belə bir qeyri-müəyyən proqnoz vermək nəyə lazımdır və ambisiyaları nə ilə izah edə bilərlər?

İşğalçı ölkənin 2025-ci il büdcəsinin xərc hissəsi 3 trilyon 482 milyard dram, yəni, 8,95 milyard ABŞ dolları nəzərdə tutulub. Bu, 2024-cü il üçün gözləniləndən 13% və faktiki 2023-cü il üçün olan xərc səviyyələrindən 37% çoxdur. Birdən-birə belə bir artım elə hayların özlərini də çaş-baş salıb və onların özləri üçün də inandırıcı görünmür. Bir çox erməni ekspertlər, xüsusən də iqtisadi məsələlərdən azşox başı çıxan haylar bunun inanılmaz olduğunu açıq şəkildə qeyd edilər. 2025-ci ildə dövlət büdcəsi kəsirinin təxminən 609 milyard dram, yəni 1,57 milyard ABŞ dolları olacağını gözləyən Ermənistan hökuməti isə inanılmaz iddialarla, ambisiyalarla çıxış etdiyini etiraf etmək istəmir. Hər halda, qeyri-müəyyən, əsassız proqnozların, ambisiyaların da puç olduğu növbəti ildə də müşahidə ediləcək.

## Uydurma büdcə, qeyri-müəyyən proqnoz və əsassız ambisiyalar yersizdir və hədsiz dərəcədə gülüncdür

Hazırda Ermənistanın növbəti il üçün nəzərdə tutulan dövlət büdcəsini müzakirə edən erməni iqtisadçıların özlərinin belə qeyd olunan göstəricilərə nail olmaq barədə şübhələri kifayət qədərdir. Bunun üçün göstərdikləri əsas da yerinə düşür. Çünki onlar özləri də bilirlər ki, 304 milyard dram, yəni 783 milyon dollardan çox əlavə vergi gəlirlərinin əldə edilməsi vergi inzibatçılığının ciddi şəkildə sərtləşdirilməsini tələb etmək deməkdir. Hətta həmin iqtisadçılar bildirirlər ki, vergi inzibatçılığının ciddi şəkildə sərtləşdirilməsi belə göstərilən nəticəni əldə etmək üçün kifayət deyil və nəzərdə tutulan mümkünsüzdür. Məsələn, "Fin-Port" agentliyinin baş direktoru Emmanuel Mkrtçyanın Ermənistana məxsus mətbuat səhifələrinə verdiyi müsahibəsində də qeyd etdiyi kimi, büdcə kəsiri hələ də yeni borclar hesabına ödənilməli olacaq ki, bu da dövlət borcunun ÜDM-in 54%-nə qədər artmasına gətirib çıxaracaq. Bir sözlə, Mkrtçyan açıq şəkildə bildirir ki, ölkəsinin dövlət büdcəsi ilə bağlı qeyri-müəyyən proqnozları və ambisiyaları cəfəngiyyatdan başqa bir şey deyil.

Haqqında qeyd olunan ekspert Ermənistan hökumətinin "yeni" iqtisadi siyasətinə də xüsusi şəkildə eyham vurur və irimiqyaslı investisiyaların olmaması, xarici inkişaf amillərinin zəifləməsi şəraitində iqtisadi artımdan dəm vurmağa ironik yanaşır, lağ edir. Həqiqətən də, bir halda ki, rəsmi İrəvan heç nəyə əsaslanmadan, daha doğrusu əsassız şəkildə öz büdcə layihəsində də hansısa cəfəng iddialarla çıxış edirsə, bu elə lağ hədəfinə çevrilməli məqamdır. Əgər Ermənistan turis axınına belə göz dikirsə və bununla belə, bu ölkə hakimiyyəti rəsmi şəkildə turist axınının 20% azalmasını etiraf edirsə, deməli, ambisiyaları və qeyri-müəyyən proqnozları da yalandır, uydurmadır və mənasızdır. İşğalçı ölkə hakimiyyəti, rəsmi İrəvan hələ də başa düşə bilmir ki, bu şəraitdə, ölkəsinin səfalət içərisində olan bu acınacaqlı vəziyyətində ya yeni "mənbələr tapmaq", yəni, hardansa vəsait dilənmək, ya da iqtisadi artıma səbəb ola biləcək layihələr axtarmaq məcburiyyətindədir ki, heç olmasa, vəziyyətdən çıxa bilsin. Belə bir durumda uydurma büdcə, qeyri-müəyyən proqnoz və əsassız ambisiyalar yersizdir və hədsiz dərəcədə gülüncdür.

## Ermənistanın maliyyə sektorunun sistemli problemi, iqtisadiyyatın monetizasiyasının aşağı səviyyəsi məsələnin nə yerdə olduğunu göstərir

Paşinyan hakimiyyətinin "qondardığı" növbəti ilin büdcə layihəsinə əsasən, 2025-ci ildə əsaslı xərclər təxminən 733 milyard dram, yəni, 1,89 milyard dollar təşkil edəcək ki, guya vu da 2024-cü ilin dövlət büdcəsində nəzərdə tutulmuş əsaslı xərclərin səviyyəsini 5,4 faizdən çox üstələyəcək. Guya 2025-ci ildə əsaslı məsrəflər ÜDM-nin 6,6%-ni təşkil edəcək ki, bu da 2024-cü ilin dövlət büdcəsində nəzərdə tutulan əsaslı xərclərin səviyyəsinə bərabərdir, halbuki, heç də belə deyil və qeyd olunanlar yaxşı halda ancaq təxəyyül, yaxud uydurma adlandırıla bilər. Bunun başqa adı da var və bu qədər ağ yalanların fonunda həmin uydurmaya elə ermənilərin özləri tərəfindən yaxın zamanda daha hansı ad veriləcəyi indidən bəllidir.

Artan qeyri-müəyyənlik şəraitində Ermənistan Mərkəzi Bankı faktiki olaraq çarəsiz durumdadır. Kifayət qədər ehtiyatlı monetar yumşalma siyasətini həyata keçirmək marağı da göz önündədir. Lakin ciddi dizbalans da öz sözünü deyir və buna görə də iqtisadiyyatın real sektorunun kreditləşməsi elə aşağı səviyyədə də qalır. Ölkədə kreditin maliyyələşdirilməsi baxımından kifayət qədər geniş olacaq iri investisiya layihələri yoxdur axı. Əli çarıqlı, beli çantalı küçə nümayişçisinin eyni ilə küçədə vəd verdiklərinin əsassız olduğu, reallıqdan uzaq olduğu qısa zamanda ortaya çıxdığı kimi, indi də onun hakimiyyət komandasının büdcə ilə bağlı qeyri-müəyyənliyinin, ambisiyalarının, bir sözlə, uydurmalarının tezliklə nə qədər mənasız olduğu hamıya, ilk növbədə də hayların özlərinə əyan olacaq.

Ermənistanın maliyyə sektorunun sistemli problemi qətiyyən diqqətdən yayınan deyil. Hər halda, iqtisadiyyatın monetizasiyasının aşağı səviyyəsi, daha dəqiq desək, təxminən 40% olması məsələnin nə yerdə olduğunu başa düşmək üçün kifayət edir. Korporativ kreditləşmə ilə bağlı da vəziyyət xüsusi diqqətə layiqdir. Xatırladaq ki, təxminən on ildir Ermənistanda iri korporativ borc alanların, xüsusən də ixrac yönümlü borc alanların kəskin çatışmazlığı var. Onu da diqqətə çatdıraq ki, məhz ixrac yönümlü yeni iri şirkətlərin yaradılmasına yüksək valyuta riskləri və əsas ixrac bazarlarında qeyri-müəyyənlik mane olur. Yəni, Ermənistan hakimiyyətinin uydurduqları ilə reallıqlar qətiyyən üst-üstə düşmür və reallıqlar məhz Paşinyan hakimiyyətinin yalanlarını açıq şəkildə ortaya qoyur.

## Paşinyan hakimiyyətinin 2025-ci il üçün iddialı planlarına, ambisiyalarına baxmayaraq, pessimist ssenari hələ də mövcuddur

Ermənistanın iqtisadi vəziyyətinə təsir edən ən mühüm amil həmin ölkənin ixracatının 60%-ə yaxınının Rusiya bazarından yüksək asılılığı olaraq qalır. Bu isə o deməkdir ki, pessimist ssenari hələ də mövcuddur. Əgər Rusiyada inflyasiya prosesləri güclənməkdə davam edərsə, bu, istehlak tələbinin ümumi azalmasına səbəb ola bilər. Belə bir vəziyyətdə erməni istehsalçıları qiymətləri artırmağa və əlverişli bazar şəraitindən istifadə etməyə çalışarkən ciddi çətinliklərlə üzləşə bilərlər. Bir çox erməni ekspertləri özləri də açıq şəkildə qeyd edirlər ki, artıq minimal marja ilə işləyən ixracatçılarla bağlı vəziyyət xüsusi narahatlıq doğurur. Ona görə narahatlıq doğurur ki, əsas bazarlarda valyuta dəyişkənliyi və qeyri-müəyyənlik şəraitində onların vəziyyəti daha da mürəkkəbləşə bilər.

Belə bir nəticə hasil olur ki, Ermənistan hökumətinin 2025-ci il üçün iddialı planları, ambisiyaları bütöv bir sıra daxili və xarici çağırışlarla üzləşməkdədir. Bəyan edilmiş qondarma büdcə layihəsi və uydurulan siyasətin dırnaqarası uğuru təkcə dövlət investisiyalarının və vergi inzibatçılığının effektivliyindən deyil, həm də əsas ixrac bazarlarında, xüsusən də Rusiyada vəziyyətin necə olacağından asılıdır. Bu şəraitdə, yəni, qeyri-müəyyənlik şəraitində büdcə layihəsi ilə bağlı hansısa uydurmalar həddindən artıq absurddur. Hər halda, işğalçı ölkənin hakimiyyət komandası Ermənistanın büdcəsini düşünsəydi, ilk növbədə məhz işğalçılıq niyyətini bir kənara qoyub daha doğru addımlara, qonşu ölkələrlə normal qonşuluq münasibətləri qurmağa çalışardı. Ən azından belə normal qonşuluq münasibətlərinin fonunda ermənilərin hansısa beynəlxalq və regional layihələrə qoşulmaq şansı yarana bilər ki, bununla da iqtisadi baxımdan inkişafa ümid edə bilərlər. Təbii ki, normal qonşuluq münasibətlərinin yaranması, formalaşması da ilk növbədə sülh şəraitinin olmasından asılıdır. Haylar bilməlidirlər ki, sülh müqaviləsi olmadan nə sülh şəraiti, nə də normal qonşuluq haqqında xəyal belə edə bilməzlər və bu da ən azından iqtisadi baxımdan ölkələri üçün arzuolunmazdır. Əgər Ermənistan hakimiyyəti qeyri-müəyyənlikdən yaxa qurtarmaq və büdcə layihəsini reallıqla uyğunlaşdırmaq, üzləşdırmaq istəyirsə, ilk növbədə sülhə nail olmağa çalışmalıdır. Əks halda qeyd olunan çatışmazlıqlar, qeyri-müəyyənlik, büdcə layihəsinin reallıqdan uzaq olması bundan sonra da davam edəcək və heç bir uydurma büdcə layihəsi Ermənistanı bu səfalətdən xilas edə bilməyəcək.

***İnam Hacıyev***

# Şərqin ilk radiosu:

## Danışır Bakı- 1 əsrin səs xəzinəsi

98 yaşlı Ana radiomuz xalqımızın səs məbədidir, lakin son vaxtlar bu funksiyasını itirmək üzrədir







**6 noyabr Azərbaycanda radionun yaranması günü və Teleradio işçilərinin peşə bayramıdır**

”Danışan qutu”nun kəşfi insanlığın yeni eraya qədəm qoymasına səbəb oldu. Artıq uzaq məsafədən danışılanı eşitmək, xəbərlər almaq, əlaqə saxlamaq mümkün oldu. Radionun yaradıcısı rus mühəndisi Aleksandr Popov 1895-ci ildə elektromaqnit dalğalarını kəşf etmiş və onun ixtirası dərhal təcrübədə sınaqdan keçirilmişdi. Radiotexnikanın inkişafından sonra dünyanın siyasi mərkəzlərində bir-birinin ardınca radiostansiyalar fəaliyyətə başladı. 1922-ci ildə Moskvada Sovet İttifaqının ilk radiostansiyası efirə çıxdı. Bundan cəmi 4 il sonra isə Bakıda bütün müsəlman şərqinin ilk radiosu yayıma başladı.

### Danışır Bakı stansiyası

1926-cı il noyabrın 5-də ”Bakinskiy raboçi” qəzeti oxucularına xəbər verirdi ki, paytaxtın bütün meydanlarında və klublarda səsucaldan qoyulub və sabah Bakıda radiostansiya işə başlayacaq. Noyabrın 6-da artıq SSRİ-nin ən böyük şəhərlərindən birinə çevrilmiş Bakının iri küçə və meydanlarında quraşdırılmış radiocihazlar xışıldayaraq dilə gəldi. Azərbaycan və rus dillərində ”Danışır Bakı stansiyası!” sözləri eşidildi. Bununla da Azərbaycan mətbuatında, mədəniyyətində və texnologiyasında yeni bir eranın əsası qoyuldu.

İlk verilişlərin hazırlanmasında Azərbaycan ədəbiyyatı və incəsənətinin görkəmli xadimləri fəal iştirak edirdilər. Bədii və musiqili verilişlərin müəllifləri Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Səməd Vurğun, Hüseynqulu Sarabski, Bülbül, Mustafa Mərdanov və başqaları idi.

Radionun ilk azərbaycanlı kişi diktoru Azərbaycan Politexnik İnstitutunun tələbəsi İsmayıl Əlibəyov, ilk azərbaycanlı qadın diktoru isə Azərbaycan Dövlət Universitetinin hüquq-iqtisad fakültəsinin tələbəsi Raya İmanzadə olurlar.

Sonrakı dövrdə Ənvər Həsənov, Hüseyn Natiq (Böyük Vətən müharibəsində həlak olmuşdur), Səməd Səmədov, Əsgər Mövsümzadə, Leyla Terequlova, Soltan Nəcəfov, Mirvarid Dilbazi, Hüseyn Qafarlı, Rafiq Ağayev, Məryəm Xudaverdiyeva, Həyat Musayeva, Yelena Orbeliani, Nina Petrova, Fatma Cabbarova, Züleyxa Hacıyeva, Gültəkin Cabbarlı, Aydın Qaradağlı, Nizami Məmmədov, Sabutay Quliyev, Ramiz Mustafayev kimi ustad diktorlar yetişdilər.

1929-cu ilin oktyabrında məşhur bəstəkar Müslüm Maqomayev Bakı radiosunun musiqi rəhbəri təyin olundu. Azərbaycan radiosunun verilişləri onun bəstələdiyi ”RV-8” radio marşı ilə açılırdı.

1932-ci ildə Müslüm Maqomayev Üzeyir Hacıbəyovla birlikdə Radio Komitəsində ilk notlu Şərq alətləri orkestrinin yaradılmasına nail oldu.

Görkəmli nasir və şairlərimizin, bəstəkarlarımızın sənət əsərlərinin radiodan səsləndirilməsi ədəbi dilin inkişaf etməsinə, milli mədəniyyət və ədəbiyyatımızın təbliğinə xidmət edirdi.

1931-ci ildə Azərbaycan radiosunda Mustafa Mərdanovun rejissorluq etdiyi ”Radioteatr” yaradıldı. Həmin ilin dekabrında Hüseyn Cavidin ”Şeyx Sənan” pyesi ilk dəfə radioda səsləndirildi. Daha sonra A.S.Puşkinin ”Boris Qodunov”, C.Məmmədquluzadənin ”Ölülər”, C.Cabbarlının ”Sevil”, Nərimanovun ”Bahadır və Sona”, V.Şekspirin ”Hamlet”, M.F.Axundovun ”Hacı Qara”, Ə.Haqverdiyevin ”Dağılan tifaq” pyesləri dinləyicilərə təqdim edildi. İlk radio tamaşaları birbaşa efirə çıxarılırdı. Azərbaycan teatr sənətinin və ədəbiyyatının radioya uyğunlaşdırılması böyük kütlələrin daha çox ədəbi əsərlərlə tanışlığına səbəb oldu. Radiotamaşalar, radiohekayələr, radioromanlar dinləyicilərin maraqla gözlədiyi verilişlər idi.

### Bakıdan dünyaya bulaq kimi axan səs dalğaları

1950-ci ildə türk və fars redaksiyalarının əsasında Xarici verilişlər baş redaksiyası yaradıldı. Sonralar 8 xarici dildə proqramlar yayımlanmağa başladı.

1964-cü il oktyabrın 15-də Azərbaycan radiosunun 2-ci kanalı- ”Araz” xəbərlər və musiqi proqramı ilk dəfə efirə çıxdı. ”Araz” radiosunun yaranmasında və fəaliyyətində Teymur Əliyev, Ənvər Əlibəyli, Sabir Axundov, Soltan Nəcəfov, Kamil Məmmədov, Hacı Hacıyev, Aydın Qaradağlı, Valid Sənani, Yalçın Əlizadə, İlyas Adıgözəlov, Hidayət Səfərli və başqaları böyük rol oynadılar. Təəssüf ki, 1998-ci ildə ”Araz” radiokanalı bağlandı. Hazırda bu adda başqa bir radio fəaliyyət göstərir.

Azərbaycan Radiosunun ”Sabahınız xeyir”, ”Axşam görüşləri”, ”Bulaq”, ”Vətən”, ”Natəvan” qızlar klubu, ”Lirika dəftərindən”, ”Muğam saatı”, ”Arzu” musiqi poçtu, ”Yazıçı və zaman”, ”Mahnı şəhəri gəzir”, ”Teatr mikrofon qarşısında”, ”Ana dili”, ”Körpü”, ”Ovqat”, ”Elin sazı, elin sözü”, ”Açıq-aşkar”, ”Xudafərin”, ”Sözün düzü”, ”Baxış bucağı”, ”Dünya”, ”Pillə”, ”Çevrə”, ”Radio-atmaca”, ”Molla Nəsrəddin”, ”Yol”, ”Yuva”, ”Vaxt”, ”Dan yeri” kimi dinləyicilərin ruhunu oxşayan verilişlər radiotariximizə əbədi həkk olunub, onların bəziləri fəaliyyətini çoxdan dayandırsa da, hələ də yaddaşlarda yaşayır. Hətta, bəzi şərq ölkələrində belə onları lentə yazıb indiyədək öz arxivində saxlayan sadiq dinləyicilər var.

Radionun xalqımızın ürəyinə yol tapmış ənənəvi verilişləri arasında dünya efir məkanın ən yaşlı verilişlərindən biri olan ”Bulaq” verilişinin xüsusi yeri var. ”Bulaq” xalqımızın folklor xəzinəsi, ədəbi çeşməsi, mədəni irsinin daşıyıcısı, ana dilimizin, el dilimizin yaşadıcısıdır. 1969-cu ilin noyabrından efirə çıxan ”Bulaq” verilişinin araya ərsəyə gəlməsində və yaşadılmasında xidmətləri olan Cəmil Əlibəyov, Mövlud Süleymanlı, Məhluqə Sadıqova, Səməndər Rzayev, Vaqif Əlixanlı, Məmməd Aslan, Abbas Abdulla, Rəfael Hüseynov, Məhərrəm Qasımlı, Ağalar Mirzə, Mailə Muradxanlı, Rasim Balayev, Mikayıl Mirzə, Kamil Vəli, Səidə Quliyeva və digərlərini hörmətlə yad etmək lazımdır.

55 ildir efirdə yayımlanan ”Bulaq”ın ssenarilərini hazırda tanınmış tədqiqatçı yazıçı, xalq çeşməsindən su içmiş Tahir Talıblı qələmə alır. Hərdən köhnə verilişlər də təkrarən efirə verilir. Radionun bütün verilişləri çox dəyərli idi, sadəcə burada hamısından ətraflı danışmaq mümkün deyil, sadəcə, xalqımızın yarım əsrlik yaddaşına şahid olan bir verilişi misal çəkdik.

### Ana radiomuz öz dəyərini qoruyub saxlamalıdır

Azərbaycan radiosu həm də xalqımızın 1 əsrlik canlı audioarxividir. Tez-tez ana radiomuzun efirində ötən əsrin müxtəlif dövrlərinə aid verilişlər təkrar yayımlanır və çox böyük maraqla dinlənir. Bu radiokanalda Azərbaycan və dünya musiqisinin şedevrlərini dinləyə bilərsiniz, ara müğənnilərinə burda yer yoxdur. Bir sözlə Azərbaycan radiosunu özünə, mədəni zövqünə, incəsənətə hörmət edənlərin radiosu saymaq olar.

Maraqlıdır ki, əvvəllər radioya qulaq asmaq üçün yalnız bir vasitə var idi- radioqəbuledici, dinləyici isə bol idi. İndi isə, radio dinləmək üçün vasitələr çoxdur, amma dinləyici azdır. Televiziya və internet insanları daha çox cəlb edir. Lakin radionun (bu sətirlərin müəllifinin də arasında olduğu) öz sadiq auditoriyası var və onlar üçün bunu heç nə əvəz eləmir.

Təəssüflə qeyd etmək lazımdır ki, gənc nəsil arasında ana radiomuzu dinləyənlərin sayı getdikcə azalır. Gənclərin çoxu fasiləsiz olaraq hay-küylü musiqilər verən özəl radioları dinləyirlər. Bu stansiyalar bütün günü ancaq musiqi və hərdən də bir neçə dəqiqəlik xəbər buraxılışı verirlər. Nə vaxt açırsan, ya rep gedir, ya bədbin türk mahnıları, ya da subkultura motivli ara mahnıları. Bayağı mövzular, mənasiz söhbətlər, efirə yaraşmayan əcaib səslər

Azərbaycan radiosu isə bütün sahələrdə sanballı proqramlar hazırlayırdı. Xalq mahnıları, muğamlar, saz havaları, tarixi, mədəni, ədəbi verilişlər xüsusilə maraqla dinlənilirdi. Bu radioda yerli və əcnəbi müəlliflərin radiopyeslərini, radiohekayələrini, hətta romanlarını da dinləyə bilirdik. Üstəlik, uşaq verilişləri, radionağılları azyaşlılar üçün çox faydalı idi və maraqla dinlənirdi. Lakin

### Tarixi verilişlər hara yoxa çıxdı?

Təəssüf ki, son vaxtlar köhnə verilişlərin çoxu efirdən yoxa çıxıb. Artıq radionun Ədəbiyyat redaksiyası, Uşaq-gənclər redaksiyası, Maarifçilik redaksiyası, Xalq yaradıcılığı redaksiyası bağlanıb, verilişlər ləğv edilib. Xüsusi layihələr departamenti yaradılıb. Burada yeni layihələr üzrə ”müasir stildə” hazırlanan audioroliklər sadiq dinləciyilərdə narazılıq yaradıb.

Xalq yaradıcılığı redaksiyasının verilişlərindən yalnız 1-i qalıb- ”Bulaq”. Halbuki folklorumuz, qədim mədəniyyətimiz və ədəbi irsimizlə bağlı verilişlərə indi daha çox ehtiyac var. Mənəvi dəyərlərə aid verilişləri bağlayıb, şou verilişlər açmaq Azərbaycan radiosu kimi müqəddəs məbədi müasir özəl radioların səviyyəsinə salmaq olardı. Ola bilsin bəziləri düşünər ki, müasir dövrdə yeni tipli verilişlərə, mahnılara daha çox maraq var deyə belə edilir. Tam əksinə, təcrübə göstərir ki, dinləyicilər qızıl fonddan olan mahnıları, ədəbi bədii verilişləri dinləməyi daha çox sevir. Məsələn son vaxtlar ən çox dinlənən radiolar Retro FM və Yurd FM-dir ki, onlar yalnız köhnə mahnıları verir, mahnı adı qoyulmuş müasir biabırçılıqları efirə buraxmırlar. Ona görə də, Ana radiomuz ”müasirlik, yenilik” deyib, 100 illik sifətini itirməməli, öz yolunu davam etdirməlidir.

Bu radio ümummilli radiodur, rəsmi dövlət radiosudur və dövlət büdcəsindən maliyyələşdirilir. Kommersiya radiosu deyil ki, biznes maraqları naminə ucuz küçə radiosu səviyyəsinə düşə. Azərbaycan radiosu (o cümlədən televiziyası) tarixi-mənəvi missiyasını davam etdirməli, ənənələrini qorumalı və gənc nəsli milli-mənəvi dəyərlər əsasında tərbiyə edən bir məbəd kimi qalmalıdır.

### 1 əsrlik səs xəzinəmiz necə qorunur?

Əldə etdiyim məlumata görə, radiounun (həm də televiziyanın) arxivindəki xeyli lent yazısı düzgün qorunmadığından artıq sıradan çıxıb və vaxtında rəqəmli formaya keçirilməyib. Çox təəssüf Radionun verilişləri və onun arxivi bizim tarixi mədəni sərvətimizdir, onu qorumalı, yaşatmalı, təbliğ etməliyik. Radioda son 98 ildə səsləndirilmiş mahnılar, müxtəlif mövzulu verilişlər, böyük şəxsiyyətlərimizin çıxışları, pyeslər, hekayələr, romanlar, nağıllar və sair əsərlər xalqımızın qızıl səs fonduna daxildir. Orta və yaşlı nəslə bunlar yaxşı tanışdır, amma gənc nəslə də onu çatdırmalıyıq. Çünki o radiomateriallarda humanizm, zəhmətkeşlik, vicdanlılıq, elmkeşlik, milli-mənəvi irsimizə hörmət kimi gözəl xüsusiyyətlər təbliğ olunur.

Yaxşı olardı ki, bütün köhnə lentlər rəqəmli formaya keçirilsin və verilişlər radionun saytında yerləşdirilsin. Beləliklə, həm ölkədə, həm dünyada yaşayan azərbaycanlılar, o cümlədən tədqiqatçılar istədikləri vaxt bu səs məbədinin arxivindən bəhrələnə bilərlər. Azərbaycan radiosunu uzun və orta dalğada, həmçinin internet vasitəsilə dünyanın hər yerində dinləmək olur.

Səslər dünyasının tarixində bizim də imzamız var. Bu möhtəşəm imzanın arxasında qiymətli audiosənədlər arxivi dayanır- XX əsrin 100 mindən artıq səs yazısı.

Xalqımızın mədəniyyət məbədlərindən biri olan Azərbaycan radiosunun və televiziyasının dünyasını dəyişmiş bütün yaradıcılarının, işçilərinin ruhu şad olsun. Arzu edirəm ki, Ana radiomuz xalqımızın ”Səs məbədi” funksiyasını daima qoruyub saxlasın. Bayramınız mübarək!

***Elçin Bayramlı***

# Qohum evliliklərinə qadağa nələrə səbəb ola bilər?

## QURUM RƏSMİSİ AÇIQLADI



"Qohumlar arasında nikah halları və onların törətdiyi fəsadlar digər ölkələrdə olduğu kimi bizim cəmiyyətdə də narahatlıq doğuran aktual ailə məsələlərindən biridir". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə məsələləri şöbəsinin müdir müavini Kamila Əliyeva deyib.

O bildirib ki, belə nikahların baş verməsi bir çox hallarda sağlamlıq imkanları məhdud olan uşaqların dünyaya gəlməsinə və nəticədə sosial cəhətdən həssas qrupların sayının artmasına səbəb olur: "Təəssüflər olsun ki, Azərbaycanda da yaxın qohumlar arasında bağlanan nikahlara rast gəlmək mümkündür. Qohum evliliklərinin mənfi nəticələrini nəzərə alaraq dövlət tərəfindən mütəmadi olaraq tədbirlər həyata keçirilir, qanunvericiliyə dəyişikliklər edilir. Belə ki, qohum nikahların mənfi nəticələri Azərbaycan Respublikasının ailə qanunvericiliyində nəzərə alınmışdır. AR Ailə Məcəlləsinin 12 Maddəsinə əsasən yaxın qohumlar (valideynlər və uşaqlar, babanənə və nəvələr, doğma və ögey (ümumi ata və anası olan) qardaş və bacılar), övladlığa götürənlər və övladlığa götürülənlər arasında nikahın bağlanmasına yol verilmir.

1 iyun 2015-ci il tarixindən etibarən Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklərin edilməsi haqqında Qanuna əsasən nikaha daxil olmaq istəyən şəxslər icbari tibbi müayinədən keçməlidirlər. Nikahdan əvvəl icbari tibbi müayinənin tətbiqi ilə irsi genetik xəstəliklərdən əziyyət çəkən, sağlamlıq imkanları məhdud olan uşaqların dünyaya gəlməsinin qarşısının alınmasına və sağlam nəslin formalaşdırılmasına şərait yaradılmışdır. Təəssüflər olsun ki, bəzi cütlüklər nikahlarını rəsmi qaydada bağlamadıqlarına görə icbari tibbi müayinədən də keçmirlər, belə ailələrdə sağlamlıq problemi ilə uşaqların doğulması riski artır. Belə hallara daha çox erkən evlilik, qohum evliliklərində rast gəlmək olur. Qohum evlilikləri nəticəsində doğulan uşaqlarda genetik xəstəliklərin olması riski olduqca yüksəkdir. Yad cütlüklər arasında nikahlar nəticəsində əlil uşaqların doğulması riski 2-4%, qohum evliliklərində risk 4-8 %-dək artır. Qohum evlilikləri nəticəsində dünyaya gələn uşaqlarda ən çox rast gəlinən xəstəliklər sırasında anadangəlmə psixi və fiziki inkişafda çatışmazlıqlar, qan xəstəlikləri (talassemiya, hemofiliya və s.), tənəffüs orqanlarının xəstəliyi və s.

Bu istiqamətdə aparılan işlərin davamı olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 iyun 2020-ci il tarixli, 213 nömrəli Qərarı ilə "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədi ilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası" təsdiq edilmişdir. Qaydanın layihəsi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən hazırlanmışdır. Sənədin icrası 13 dövlət qurumuna və 76 yerli icra hakimiyyətinə tapşırılıb. Hər ilin yanvar ayında aidiyyəti qurumlar tərəfindən təqdim edilən məlumatlara əsasən Komitə tərəfindən görülmüş işlərə dair ölkə üzrə hesabat hazırlanır, Komitənin rəsmi saytında dərc edilir.



Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, eləcə də Dövlət Komitəsinin Uşaq və Ailələrə Dəstək Mərkəzləri tərəfindən Səhiyyə Nazirliyinin ekspertlərinin iştirakı ilə mütəmadi olaraq yeniyetmə və gənclərin, valideynlərin erkən evlilik və qohum evliliklərin mənfi nəticələrinə dair məlumatlılıq səviyyəsini artıran, onların informasiya təminatının yaxşılaşdırılmasına yardım edən görüşlər keçirilir, maarifləndirici vəsaitlər dərc edilir və yayımlanır. Təsdiq edilmiş Qərarın 2-ci hissəsində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə qohum hesab edilən gənclər arasında bağlanan nikahların və belə nikahların pozulması hallarının statistikasının illər üzrə aparılmasını təmin etmək üçün müvafiq tədbirlərin görülməsi tapşırılmışdır.

Ədliyyə Nazirliyi tərəfindən verilən məlumata əsasən qohum hesab edilən şəxslər arasında qeydə alınmış nikahların sayı 2021-ci ildə 2363, 2022-ci ildə isə 2542 olub, 2023-cü ildə isə 1950, belə nikahların pozulmasının sayı 2021-ci ildə 204 olub, 2022-ci ildə isə 608 olub, 2023-cü ildə isə- 601 olub. 2023-cü ildə qohum hesab edilən şəxslər arasında qeydə alınmış nikahların sayının çoxluğuna görə Bakı şəhəri (504), Lənkəran-Astara (227), Mill-Muğan (203), , Abşeron-Xızı (171), Qarabağ (160) regionları xüsusi qeyd etmək lazımdır.

Qohum evliliklərinin ölkənin gələcək nəsillərinə və genofonduna ciddi təsir edə biləcəyini nəzərə alaraq, eləcə də müəyyən nəticələri əldə etmək üçün qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi zərurəti yaranmışdır. Bu baxımdan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən qanunvericiliyimizə həm erkən nikahlarla bağlı, həm də qohum nikahları ilə bağlı dəyişikliklərin edilməsi və hüquqi çərçivənin ciddiləşdirilməsi təklifi verilmişdir. 28 iyun 2024-cü il tarixində ölkə başçısının imzası ilə Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu təsdiq edilmişdir. Qanuna əsasən AR Ailə Məcəlləsinin 12-ci Maddəsinə ümumi bioloji baba və (və ya) nənəsi olan qardaşların və (və ya) bacıların arasında, bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, həmçinin bibi (xala) və qardaş (bacı) oğlu arasında nikahların bağlanmasına qadağa qoyulması ilə bağlı dəyişiklik edilib. Bununla yanaşı erkən evliliklərin qarşısının alınmasına dair Ailə Məcəlləsinə, Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər edilib. Qanun 2025-ci il iyulun 1-dən qüvvəyə minir. Dövlət tərəfindən sözügedən məsələnin həlli istiqamətində lazımi tədbirlərin görülməsinə baxmayaraq bəzi ailələrdə müşahidə olunan ənənəvi stereotiplər, qohumların evlənməsinə müsbət yanaşılması kimi patriarxal düşüncələr belə nikah hallarının baş verməsinə səbəb olur".

"Komitə tərəfindən 2021-ci ildə "Ölkədə qohum evlilikləri üzrə vəziyyətin öyrənilməsinə dair analitik hesabat" hazırlanıb. Sorğuda 1394 respondent iştirak edib. Təhlildə qeyd olunduğu kimi, belə nikahlara "əksəriyyət mənfi yanaşsa da, müsbət yanaşanlar da var". Respondentlərin fikrincə, qohum evliliyinin bir sıra səbəbləri var: "yaşlı nəslin təkidi", "nəsildən nəslə keçən gərəksiz adətlər, stereotiplər", atalar tərəfindən qızların təhlükəsizliyini təmin etmək məqsədilə onları erkən yaşda qohumlara ərə verilməsi, "ailə quran insanların təhsilsizliyi, "kifayət qədər məlumatın olmamasıdır. Bu cür ailələr adətən ailəyə aid olan var-dövlətin dağılmaması, ailələr arasındakı bağları qorumaq, qohumların evlilik və sosial-iqtisadi baxışların eyni olması səbəblərindən qurulur.

Belə halların qarşısının alınması üçün yalnız dövlət tərəfindən görülən işlər kifayət deyil. Bununla yanaşı bütün ictimai fəal insanların, ümumilikdə bütün cəmiyyət üzvlərinin də belə halların qarşısının alınmasında yaxından iştirak etməsi cəmiyyətdə qohum nikahlarla bağlı düzgün münasibətin formalaşmasında və məsələnin həllində öz töhvəsini verəcək" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***



Elçin Bayramlı

## Uşaqlarınız təhlükə altındadır, bunun fərqindəsinizmi?

***Texnogen eraya keçid və həyatımızın elektronlaşması böyüklərlə yanaşı, uşaqlara da öz mənfi təsirlərini göstərməkdədir. İnternet artıq çoxdan psixotron terror yuvasına çevrilib. Virtual dünyada baş verənlər tədricən real dünyaya transformasiya edir ki, bu da çox dəhşətli nəticələrə gətirib çıxarır.***

Müasir dövrdə kompüter oyunları uşaqların əsas məşğuliyyətinə çevrilib. Bu oyunların böyük əksəriyyəti zorakılıq, quldurluq və cinayət elementləri ilə doludur. Bunlar isə birbaşa uşaqlaırn alt şüuruna həkk olunur və onların psixologiyalarının formalaşmasında əsas rollardan birini oynayır. Bunun əyani nümunələrini indiki uşaqların bir çoxunda görmək mümkündür. Dünyanın ən nüfuzlu psixoloqları və sosioloqları bu oyunları psixikanı dağıdan və beyni pozan elementlər kimi ortaya qoyur və qadağan olunmasını tələb edirlər. Bəzi ölkələrdə belə oyunlarla bağlı məhdudiyyətlər tətbiq edilib.

Azərbaycanda bu tip oyunların qadağan olunmasına çoxdan ehtiyac var. Çünki real faktdır ki, uşaqlarımızın psixologiyasını zədələyən faktorlar arasında bəzi oyunların xüsusi rolu var. Mən bu oyunların adi bir əyləncə olmadığını, əksinə, olduqca təhlükəli psixotron silah olduğunu düşünürəm. Bu cür oyunların təsirlərinin araşdırılması və onların siyahısının tutulması mütləqdir. Həmçinin, mütəxəssislərin rəyini nəzərə alaraq, bir çoxunun qadağan olunması lazım gəlir.

Bugünlərdə uşaqların psixologiyasında aqressiv davranışların inkişaf etməsi ciddi bir problem olaraq qarşımıza çıxır. Bəzi oyunlar vasitəsilə uşaqlar arasında insan öldürmək və digər vəhşiliklərin normallaşması, onların psixologiyasında dərin izlər buraxa bilir. Bu, nəticə etibarilə uşaqlar arasında kriminal davranışların artmasına, narkotik maddələrə meyilin yüksəlməsinə səbəb olur. Zorakılıq, təcavüz, terrorizm kimi təhlükələr uşaqların şüur altına yerləşdirilərək, onların gələcək davranışlarını formalaşdırır. Bu, cəmiyyətimiz üçün son dərəcə təhlükəlidir.

Azərbaycanda bu məsələyə qarşı adekvat tədbirlərin olmaması narahatlıq doğurur. Valideynlərin 90%-dən çoxu bu təhlükələrin fərqində deyil. Uşaqların psixoloji sağlamlığına dair ciddi yanaşmanın olmaması, bu problemlərin daha da dərinləşməsinə yol açır. Buna görə də, dövlətin bu məsələyə nəzarət etməsi və ciddi tədbirlər görməsi zəruridir. Eyni zamanda, xüsusi bir elmi mərkəzin yaradılması vacibdir. Bu mərkəz, belə oyunların təsirlərini araşdırmalı, valideynlərə və mütəxəssislərə bu sahədə məlumat verməli və praktiki həll yolları təklif etməlidir. Dünyanın bir çox ölkələrində bu məsələlərə qarşı ciddi tədbirlər görülür. Azərbaycanda da bu vəziyyətə ciddi yanaşmağın, real və effektiv addımlar atmağın zamanıdır.

Həm də məsələ təkcə bu oyunlarla bağlı deyil, müasir uşaq multfilmlərinin bir çoxu subliminal mesajlarla, 25-ci kadrlarla doludur. Həm kadr, həm səs effektləri ilə, xüsusi motivli həm də süjet xətti ilə uşaqların beyninə psixotron terror edilir. Bununla bağlı dünya elmi mərkəzləri və mediasında çox sayda faktlar aşkarlanıb və bəzi ölkələr bu cür filmlərin yayımını qadağan edib. Bunun üçün xüsusi texnologiya tətbiq olunur və belə elementlər aşkar olunur. Bu cür filmlərin bəzilərində bütün zərərli və təhlükəli təbliğatlarla yanaşı, satanizmin də təbliği aşkar olunub.

Rusiyada uşaq filmləri xüsusi texnologiya vasitəsilə araşdırılır və bu tip filmlərin yayımı qadağan edilir. TV-lərdə isə daim bu mövzuda verilişlər və müzakirələr təşkil olunur və valideynlərə ətraflı məlumatlar verilir.

Bu məsələdə dövlət və media diqqətli olmalı və uşaqlarınızı bu terrordan qorumalıyıq. Bu işi cəmiyyətdən, valieynlərdən gözləməyə dəyməz, onların 90 faizi bu haqda heç məlumatlı belə deyillər. Uşaqlarının əlində smartfon verirlər və ya oturdurlar kompüterin, televizorun qarşısında, öz rahatlıqlarını təmin edirlər. Nəticədə onların uşaqlarının psixologiyasını artıq özləri yox, xarici rejissorlar formalaşdırır. Bir müddət sonra uşaqların ağlagəlməz hərəkətlər törətdiyini görəndə bunun səbəbini heç anlaya da bilmirlər.

Qısası təhlükə çoxdandır ki qapımızı döyür. 25 ildir bu haqda yazırıq, danışırıq, lakin nə cəmiyyət narahat olur, nə də müvafiq orqanlar bu haqda hər hansı bir iş görürlər. Uşaqların törətdiyi fəsadlar, cinayətlər isə getdikcə artır, narkomaniyaya, kriminala, zorakılığa meyl getdikcə çoxalır. Bir də ayılacağıq ki, bizim uşaqların bizə heç bir aidiyyatı qalmayıb. Təhlükənin fərqindəsinizmi?

# Dünyanın gözündən GƏNCƏ

***Gəncə illərlə işğaldan sonra dəyişmiş, inkişaf etmiş bir şəhərdir. Bu münbit torpaqlar tarix boyu dəfələrlə adlarını dəyişərək müxtəlif millətlərə ev sahibliyi etmişdir. Gəncənin möhtəşəm tarixini və küçələrini kəşf etmək istəyirsinizsə, Gəncəyə bir bilet almaq kifayətdir.***

Şəhərdə 6 məscid, 2 kilsə, 4 ziyarətgah, 5 pir, 5 islam və 3 xristian yönümlü dini icma, 51 qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Gəncə tanınmış ibadət yerlərindən Şah Abbas məscidi, Mollacəlilli məscidi, Hüseyniyyə məscidi, Ozan məscidi, Zərrabi məscidi, Şahsevənlər məscidi, Qazaxlar məscidi və Müqəddəs Sərkis kilsəsini qeyd etmək olar.

Gəncə və ona yaxın ərazilərdə, Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrinə aid Gəncə dialekti (Gəncə ləhcəsi) mövcüddur.

SİA Gəncənin dünyanın gözündən necə görünməsi barədə araşdırma aparıb.




## Heydər Əliyev parkı

Gəncədə Ulu Öndər Heydər Əliyevin adını daşıyan nəhəng park var. Nəhəng dedikdə 450 hektar sahədən danışırıq. Parka gənclər mərkəzi, velosiped icarəsi məntəqələri, gənclər mərkəzi, müasir incəsənət muzeyi, amfiteatr, uşaq meydançası və süni göl əlavə olunub. Fidanlar ağaca çevrildikcə təbiətdəki sosial kompleksə doğru addımlar atıldı.

Parkın girişindəki möhtəşəm darvazadan artıq başa düşürsən ki,



bura böyük bir ərazidir. Yamyaşıl ağaclarla örtülmüş şəhərin düz ortasında incəsənətə, uşaqlara və gənclərə həsr olunmuş ərazini görmək olduqca təsir edicidir. Gəncə artıq buradan böyük rəğbət toplayıb. Məlum oldu ki, Gəncəyə gələndə mütləq ziyarət etməli və görməli yerlərdən biridir.

## Butulkalı Ev

Butulkalı Ev təxminən 5000 şüşədən istifadə edilməklə tikilmiş fərqli və təsir edici bir quruluşdur. Evin memarı İbrahim Cəfərov bu evi qardaşına və II Dünya Müharibəsi illərində vətənə qayıda bilməyən bütün əsgərlərə həsr edərək tikdirib. Bütün dünyanı lərzəyə gətirən və sarsıdıcı təsirlərə malik olan bu müharibənin ağrılı xatirəsi kimi ziyarət edə biləcəyiniz dayanacaqdır. Evə baş çəksəniz, Cəfərovun nəvəsindən döyüş hekayələrini dinləyə bilərsiniz.



## Atatürk Prospekti

Gəncənin düz ortasında tanış ada rast gələ bilərsiniz. Tarixi binaların, alış-verişin və şəhərin ürəyinin döyündüyü Atatürk küçəsini görməkdən xoşbəxt olacaqsınız. Bu küçənin bir tərəfi yamyaşıl ağaclara açılan Xan Bağı bağının divarını təşkil edir. Atatürk küçəsindən keçərkən, gəzintiyə ara verib, yamyaşıl ağacların ləzzətini ala bilərsiniz.

## Gəncə Dövlət Filarmoniyası

Gəzdiyiniz ölkənin musiqisini kəşf edə biləcəyiniz sahələri tapmaq o ölkənin mədəniyyətinə parlaq bir qapı açmaq kimidir. Fikrət Əmirovun adına orkestr çıxışları üçün tikilmiş konsert zalı Gəncə Dövlət Filarmoniyası məhz bu məqsədə xidmət edən mədəniyyət məkanıdır. Bina köhnə görünsə də, 1991-ci ildə tikilib.




## Cümə məscidi (Şah Abbas məscidi)

Cümə məscidi kimi də tanınan Şah Abbas məscidi Azərbaycan memarlıq tarixində yaradılmış ilk memarlıq məktəbi olan Arran memarlıq ənənələrində tikilmiş tarixi binadır. 17-ci əsrdə tikilmiş məscid xarici görkəminə görə bildiyimiz məscidlərdən fərqlidir. Məscidin həyətində SSRİ dövründə fəvvarələr tikintisi zamanı yaranmış Türk hamamı olan Çokak Hamamını görəcəksiniz. Deyə bilərik ki, ziyarət edilməli, görülməli mədəni irsdir. Əgər şəhərə gedirsinizsə, buranı da ziyarət ediləcək yerlər siyahısına əlavə etməlisiniz.

## Aleksandr Nevski kilsəsi

Bizans memarlığına uyğun olaraq Rus Pravoslav Kilsəsi olaraq inşa edilən Aleksandr Nevski kilsəsi müsəlmanların və pravoslavların ianələri ilə inşa edilib. Bir müddət kafedral, bir müddət isə muzey kimi istifadə edilmişdir. Azərbaycanın ən qədim pravoslav kilsələrindən biri olan bina öz möhtəşəm memarlığı ilə görməyə dəyər. Bazar günləri kilsədə ibadət hələ də davam edir. Əgər gedib kilsənin içini ziyarət etmək istəyirsinizsə, uzun paltarlar seçməyi məsləhət görürük.

## İmamzadə Sosial Kompleksi

Gəncədən təxminən 7 km aralıda yerləşən möhtəşəm gözəllikdir. Ətrafı qırmızı kərpiclə əhatə olunub, içi səliqə ilə işlənib. Yenə də Arran Memarlıq Məktəbinin ənənəsinə uyğun tikilmiş məkandır. Kompleksin daxilində türbələr, məscidlər və karvansaraylar var. Türbənin içərisində Hz. Məhəmmədin nəvəsi İmam Muhəmməd əl-Baqirin övladlarından birinin məzarı olduğu üçün İslam dünyasında xüsusi yeri var.

## Göygöl gölü

Göygöl gölü Gəncədən bir qədər kənarda, düz təbiətdə, yaşıl və mavinin sizi hüzura apardığı bir yerdir. Gəncənin tarixi yerlərini gəzdikdən sonra Gəncəyə tam səyahət etmək üçün mütləq burada dayanmalısınız. Çünki Qafqazın təbiəti də başqadır.

## Gəncə yeməkləri

Bunların içində ən məşhuru Gəncə dovğası və Gəncə kətəsidir.

**Səhər yeməyi:** - ənənəvi Gəncə səhər yeməyi menyusuna yerli istehsal olan yağ, bal, pendir, lavaş, təndir çörəyi, yumurta Azərbaycan çayı (şirin çay) və şirniyyatlar daxildir.

**Nahar yeməyi:-** ənənəvi Gəncə nahar yeməyi menyusuna şorba, ardınca da ikinci yemək yəni, Gəncə mətbəxinə xas olan xörəklər daxildir. Adətən, nahar yeməkləri mürəbbəli çay içməklə yekunlaşır.

**Şam yeməyi:** - ənənəvi şam yeməyi menyusuna yüngül yeməklər daxildir.

*Ardı Səh. 11*

# Dünyanın gözündən
# GƏNCƏ

Əvvəli Səh. 10

**Şirniyyatlar:** - Gəncə mətbəxində şirniyyatlar mühüm yer tutur. Gəncə şirniyyatı dedikdə ilk ağla gələn gəncə paxlavası, şəkərburası və halvasıdır. Novruzun simvolu olan paxlava Gəncədə özünəməxsus xassələrlə seçilir. Belə ki, Gəncə paxlavası 7 qat xəmirdən və arasında çəkilmiş qoz və şəkər tozu ilə doldurulur. Daha sonra məşhur Gəncə məcməyisinə qoyularaq odun və ya kömürdə qalanmış odda hazırlanır. Son olaraq üstü bəzənir, rənglənir və qoz, fındıq kəsilmiş paxlavanın mərkəzinə qoyulur.

## Gəncə şəkərburası və halvası

Gəncə mətbəxinin digər məşhur şirniyyatı şəkərburadır. Şəkərbura da Novruz bayramı ərəfəsində daha çox hazırlanır. Novruz adətlərindən olan "papaq salma" icra olunanda ev sahibləri mütləq atılan papağa şəkərbura qoyacaqlar. Gəncə Halvası isə əsasən hüzr mərasimlərində ehsan niyyəti ilə hazırlanır. Gəncə halvasının özəlliyi qozlu və qozsuz olmasıdı.

**Gəncə mətbəxinin şorbaları:** şorbalar arasında Gəncə mətbəxində ən əsas yer tutan Gəncə Dovğasıdır. Gəncəlilər hər zaman öz dovğalarının mükəmməlliyi ilə fəxr edir. İstifadə edilən göy-göyərti sayı ( 6 cür göyərti) və yağlı camış qatığını dovğanın daha bir üstünlüyü hesab edirlər. Gəncəlilər dovğalarını stəkanda (fincanda) içməyi üstün tuturlar. Çox vaxt çörəksiz yeyirlər. Bir çox gəncəli dovğanı soğan ilə yeməyi xoşlayır.







**Gəncə mətbəxinin turşuları (şoraba):** - Gəncə mətbəxindəki turşular adətən payız və qış aylarında süfrəyə təqdim olunur. Bəzi bölgələrdə şoraba adlandırılsa da Gəncə əhalisi ona əsasən turşu deyir və yay aylarında hazırlanır. Gəncə mətbəxində ən çox rast gəldiyimiz turşular bunlardır: Xiyar, pomidor, kələm (ağ və qırmızı), bibər, alça turşusu (özlüyündə iki növü var- həm əzilmiş, həm də bütöv formada), alma turşusu, zoğal turşusu.

**Gəncə mətbəxinin salatları:** - Ölkəmizin digər bölgələri ilə xüsusi bir fərqi yoxdur. Gəncə mətbəxindən ən çox istifadə olunan salat - "Çoban Salatı" - xiyar, pomidor, soğan, göyərti, acı bibər, şirin bibər arzuya görə limondan istifadə edərək hazırlanır.

**Gəncə mətbəxinin çörəkləri:** - Çörək daima türk xalqlarında mənəvi sərvət, bərəkət simvolu sayılıb. Hər şeydən öncə süfrəyə məhz çörək gətirilir. Gəncə süfrəsində ən çox rast gəlinən çörəklər Təndir, Kürə, Skonnu, Lavaş, yuxanı qeyd etmək olar. Bir çox evlərdə sobada hazırlanan ev çörəyindən istifadə olunur.

**Gəncə mətbəxinin plovları:** - Plov və ya gəncəlilərin sevdiyi deyimlə Aş milli süfrənin bəzəyi olduğu kimi, Gəncə süfrəsinin də şahı sayılır. Gəncə süfrəsində bir çox növ plovlar hazırlanır. Qaralı aş adətən bayramlarda, toylarda və hüzr mərasimlərində hazırlanır. Gündəlik olaraq daha çox Səbzəli aş, Paxlalı aş, Südlü aş, Döşəməli aş hazırlanır.



**Gəncə mətbəxinin mürəbbələri:** - Gəncədə bir evə qonaq getsəniz mütləq qarşınıza ilk olaraq çay gətiriləcəkdir. Çayın yanında müxtəlif şirniyyatlar və mürəbbələr qoyulacaq. Mürəbbəni Gəncəlilər yay aylarında özləri hazırlayaraq soyuq yerdə saxlayır, il boyu istifadə edirlər. Demək olar ki, hər bir evdə mürəbbəyə rast gəlmək mümkündür. Gəncə mətbəxində ən çox rast gəldiyimiz mürəbbələr bunlardır: Qoz, moruq (qırmızı, qara), çiyələk, qarağat, qarpız, zoğal, cənnət alması, armud, göyəm, göyəli, gilas (qara,qırmızı), ərik, üzüm, nar, şaftalı, gül, tut, heyva, əncir (qara,ağ), gilanar, ağ gilas (ağ qırım).



**Gəncə mətbəxinin ədviyyatları:** Gəncə xörəklərində ədviyyələrdən zəfəran, dəfnə yarpağı, kişniş toxumu, həmçinin qurudulmuş nanə, qurudulmuş şüyüd, cəfəri, tərxun, reyhan, kəklikotu və s. bol işlədilir.

**Gəncə mətbəxinin əsas yeməkləri:** - Burada çoxsaylı çeşidlər var. Gəncəlilər ət sevdiyindən, əsas yeməklərində ətdən geniş istifadə olunur. Gəncə mətbəxində əsas yemək kimi təqdim olunan yeməklər bunlardı: Dolmalardan - kələm dolması, yarpaq dolması, badımcan dolması və kor dolma. Kələm dolmasını sevən gəncəlilər ağız dadlarına uyğun olaraq ya şəkər tozu tökərək, ya da alça turşusu əlavə edərək yeyirlər. Gəncə mətbəxinin sevimli yeməklərindən olan kətə, kalapur, buğlamanı da qeyd etmək lazımdır. Gəncə mətbəxinin ən məşhur əsas yemələrindən biri isə Gəncə qovurmasıdı.

Gəncədə Kükü, sülfülü, hoppaca, süyux, spanaq qovurması, Bağır-beyin, Şeşe-modu lobyası əzməsi kimi yemklər də var. Bəlkə bunları siz də bilisniz, lakin "Bağır-Beyin" adlı yemək qədim Gəncə mətbəxinin ən tamlı təamlarından olub. Bağır Beyin adlı yemək aşın yanında xuruş kimi verilirdi. Hazırlanma qaydası isə belədir - 1 kilo qoyun quyruğunu qoyunun qara ciyəri ilə su əlavə edilərək bişirilir. Sonra hər ikisini əzib pasta halına salırlar, duz, istiot vuraraq plovun yanında kiçik qabda təqdim edirlər.

Gəncə dilinin ləzzətli və eyni zamanda bilinməyən və çoxlarının getdikcə unudulan dili var. Qaymaqdan və süddən Gəncə Firnisi hazırlandıqdan sonra bəzən darçın səpilir. Firni ənənəvi olaraq mərhumun matəm və anım günlərində xeyirxahlıq niyyəti ilə hazırlanır.

"Gəncə Səbəti"

Gəncə mətbəxindən danışarkən "Gəncə Səbətini" qeyd etməmək mümkün deyil. Gəncə səbəti nədir? Gəncə səbəti əsasən uşaqlara və ya başqa rayonlarda yaşayan dost-tanışlara hədiyyə olaraq göndərilir.

Gəncə Səbətinə daxil olan məhsullar bunlardır: - Ət (mal, qoyun əti), yarma, kartof, soğan, pomidor, xiyar, duzlu meyvələr,, süd məhsulları (süd, qatıq, pendir, şor, yağ (kərə) dovğa) lobya, badımcan, bibər, limon armud, toyuq, xurma, üzüm, lavaş, yuxa, təndir çörəyi, quru meyvələr (toz, fındıq, fıstıq, badam, şabalıd).

*Ayşən Vəli*

# "Zəfər Günü Azərbaycan tarixinin ən şərəfli səhifəsidir"

**"30 illik işğal tarixinə malik Ermənistan keçən əsrin sonlarından başlayaraq həm Azərbaycanın 20% ərazisini işğal etmişdi, həm də milyondan artıq vətəndaşımızı yalnız azərbaycanlı olduqları üçün doğma yurdlarından didərgin salmışdı". Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib.**

O bildirib ki, BMT-nin dörd qətnaməsi olmasına baxmayaraq Ermənistan ard-arda Azərbaycana qarşı təxribatçı bəyanatlar verib və danışıqlar prosesini məqsədyönlü şəkildə darmadağın etmişdi: "Fasiləsiz olaraq Azərbaycana qarşı hərbi təxribatlar davam edirdi. Təmas xəttində gərginliyi Ermənistan durmadan artırırdı. Cəbhə xəttinə yaxın ərazilərimizdə hücum silahları və əlavə qoşunlar cəmləşdirirdi. Böyük həcmdə silah-sursatın Azərbaycan ordusunun mövqelərinə yaxın ərazidə yerləşdirilməsi Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını sübut edirdi. Azərbaycan tərəfindən səslənən bəyanatları Ermənistan diqqətə almadı. BMT Təhlükəsizlik Şurasının qərarları, Azərbaycan torpaqlarının işğaldan istənilən yolla azad edilməsinə dair bəyanatlar Ermənistan tərəfindən qətiyyən diqqətə alınmırdı. Növbəti təxribatların birində Azərbaycan Vətən müharibəsinə başladı. Cəmi 44 gün ərzində ərazilərimizin böyük əksəriyyətini erməni silahlılarından təmizlədi. Ümumilikdə 300-dən çox yaşayış məntəqəsi Azərbaycanın nəzarətinə keçdi.



Ermənistanın Azərbaycan ərazilərində yaratmış olduğu "Ohanyan xətti" kimi tanınan mühəndis-istehkam sistemləri bir neçə saat içində qəhrəman əsgər və zabitlərimiz tərəfindən darmadağın edildi. Ard-arda qələbə xəbərləri Şuşanın azad edildiyi günə qədər davam etdi. Ardınca isə Qarabağ iqtisadi rayonunda Azərbaycan Rus kontingentinin müvəqqəti nəzarətində olan ərazilərdə bir çox əməliyyatlar həyata keçirdi. Sonuncu antiterror əməliyyatı ilə ərazilərimizdə seperatizmə birdəfəlik və əbədi son qoyuldu".

"Artıq Azərbaycan xalqı dördüncü ildir ki, Zəfər Gününü qeyd edir. Zəfər Günü Azərbaycan tarixinin ən şərəfli səhifəsidir. Bu gün Azərbaycan xalqı Ali Baş Komandan və qəhrəman ordumuzun sayəsində dördüncü ildir ki, Zəfər bayramını qeyd edir. Bu gün Azərbaycan 21-ci əsrin tək qalib ölkəsidir. Ermənistan isə iki dəfə kapitulyasiya aktını imzalamış fərari orduya malik ölkədir. Bu gün bütün dünya Azərbaycan xalqının nəyə qadir olduğunu, Azərbaycan ordusunun qəhrəmanlıq salnaməsinin şahididir. Azərbaycan işğalçı ölkə üzərində tarixi zəfər qazanmaqla adını qalib ölkələr sırasına yazdırdı. Zəfər Günü bundan sonra da Azərbaycan tarixində misilsiz bir qələbənin simvolu olaraq daim qeyd ediləcək" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# DİQQƏT: Bu həkimlər cinayət məsuliyyətinə cəlb edilə bilər

*AYDINLIQ GƏTİRİLDİ*

"Plastik, rekonstruktiv və estetik əməliyyatları düzgün aparmamış cərrah həmçinin hüquqpozmalara yol verən şəxslər həm mülkü, həm inzibatı, həm də ki, cinayət məsuliyyətinə cəlb edilə bilər. Cərrahın mülki məsuliyyətə cəlb edilməsi nəticəsində pasientə kompensasiya ödənilir. Klinika və kosmetoloji mərkəz sağlamlığın qorunması sahəsində vətəndaşların hüquqlarının pozulmasına görə mülkü məsuliyyətə cəlb edilə bilər". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib. Onun sözlərinə görə, plastik, rekonstruktiv və estetik əməliyyatlar ixtisaslaşmış həkim personalı tərəfindən həyata keçirilməli, həmin əməliyyatlar plastik və rekonstruktiv cərrah ixtisasına malik olan həkim və tibb personalı tərəfindən aparılmalıdır: "İddiaçının tələbi ilə məhkəmə cərrah və ya klinikanın işində buraxdığı nöqasana görə xəstəyə və ya onun ailə üzvlərinə maddi və mənəvi ziyana görə kompensasiyanın ödənilməsi barədə qərar qəbul edə bilər. Əgər xəstə əməliyyat zamanı vəfat etdikdə və ya onun sağlamlığına ağır zərar dəydikdə isə əməliyyatı həyata keçirmiş həkim cinayət məsuliyyətinə də cəlb oluna bilər. Cinayət Məcəlləsinin 314-cü maddəsində deyilir ki,

- Səhlənkarlıq, yəni vəzifəli şəxsin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində öz xidməti vəzifəsini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsifiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə və ya dövlətin və ya cəmiyyətin qanunla qorunan mənafelərinə mühüm zərər vurulmasına səbəb olduqda-

- 1500 manatdan 3000 min manatadək miqdarda cərimə və ya iki 240 saatdan 460 saatadək ictimai işlər və ya 2 ilədək müddətə islah işləri və ya 2 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 6 ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

- Məhkəmə kompensasiyanın ödənilməsi barədə qərar qəbul etdikdən sonra onu icra olunması üçün müvafiq icra şöbəsinə göndərir və həmin qurum tərəfindən kompensasiyanın ödənilməsi təmin edilir.



Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 210-cu və 215-ci maddələrində deyilir ki,

- 210-cu maddə Lisenziya olmadan özəl tibbi fəaliyyətlə və ya əczaçılıqla məşğul olma.

- Qanunvericiliklə müəyyən edilmiş qaydada verilən müvafiq diplom və ya xüsusi icazə olmadan xalq təbabəti ilə məşğul olmağa görə dörd yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilir.

- 215-ci maddə Sağlamlığın qorunması sahəsində vətəndaşların hüquqlarının pozulması

- Tibb fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən dövlət tibb müəssisələrinin nizamnamələrində və ya özəl tibb fəaliyyəti sahəsində onlara verilmiş lisenziyada göstərilən işlərdən və xidmətlərdən kənar tibb fəaliyyətinin həyata keçirilməsinə görə fiziki şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.

***Ayşən Vəli***



## FELYETON

# Dodaq sürücü

***Əvvəllər maşınları yalnız kişilər sürərdi. Sonralar maşınları kişilərlə yanaşı, qadınlar da sürməyə başladı. Biz uşaq olarkən qadın sürücü görəndə lap dəhşətə gəlirdik ki, qadın da maşın sürər. Sonralar isə qadın sürücülər çoxaldı və bu məsələ də adiləşdi.***

İndi maşınları həm qadınlar, həm də kişilər sürür. Biz də alışmışıq yanımızdan ötən avtomobilin içərisində ya qadın, ya da kişi görməyə. Heç kim də maşının içərisində qadından, kişidən başqa sürücü görməyi təsəvvür edə bilməz. Deyərsiniz ki, niyə, bəzən sükan arxasında uşaqmuşaq da görmək olur. Olar, olar. Onlar ata balalarıdır, hərdən ataları onlara maşını verib "bir şəhəri hərlən",- deyir. Birdən də elə olur ki, onlar şəhəri hərləndikcə, hadisələr də bir-birinin ardınca baş verir. Lakin bu ata balalarında məgər "günah" var?..

Söhbət nə maşın sürən qadınlardan, nə kişilərdən, nə də ata balalarından gedir. Söhbət bu gün tez-tez rastlaşdığımız yeni sürücülərdən gedir. Bu sürücülərlə rastlaşan olubsa, nə dediyimi anlayar. Rastlaşmayanlar da bundan sonra bir az gözüaçıq olsunlar, ətraflarına yaxşı baxsınlar, onlar da görəcəklər. Bu, elə bir gizli məsələ deyil.

Deməli, şəhərdə yeni sürücülər peyda olub: dodaq sürücülər. Bir də baxırsan yanından maşın ötür, istər-istəməz nəzər salırsan, içəridə dodaqdan savayı heç nə görmürsən. Dodaq sürücüləri işıqforlarda daha yaxşı müşahidə etmək olur. Maşınlar dayanır ki, sakinlər keçsinlər, bu an ətrafa bir nəzər salsan, hökmən dodaq sürücülərdən birini görməmiş olmazsan. Allah eləməsin ki, bu dodaq sürücülərlə siz də mənim kimi axşamçağı rastlaşasınız. Və mənim kimi duvalıq olasınız.

Yaxşı ki, xəbərdar etdim sizi. Yoxsa dodaq sürücüləri görərkən vahimələnməməyiniz mümkün deyil. Birinci dəfə mən dodaq sürücünü görəndə 3-5 gün özümə gələ bilməmişdim. Sonra alışdım. Necə ki, bir vaxtlar maşınları ancaq kişilər sürərdi, biz də qadınları sürücü kimi görəndə devikərdik. Bu dəfə də qadın yox, kişi yox, dodaq görəndə devikdim, sonra isə tez alışdım.

Birinci dəfə necə olmuşdu görməyim, nağıl edim, siz də bilin. Banka gedirdim. Bank binasının yanında maşın dayanmışdı. Mən də yolu keçərkən həmin maşının yanından ötməli idim. Elə həmin an da maşına tərəf baxmışdım və "bismillahir-rəhmanir-rəhim",- deyib qulağıma gələn ürək döyüntülərimlə birlikdə addımlamağa davam etmişdim. Banka necə getdim, necə gəldim, xatırlamıram. Çünki gördüyüm mənzərənin təsirindən qəti çıxa bilmirdim.

Vallah, deyəcəksiniz ki, axı bu dodaq sürücü kimdir, nədir, səhərdən uzun-uzadı danışıb mətləbə gələ bilmirsən. Deyim, siz də bilin ki, görəndə qan-bağır olmayasınız. Kim olacaq, əslində bu sürücü qadın idi. Lakin alt dodağı yeri, üst dodağı göyü süpürürdü. Bilmirəm, dodaqları dərd tapmışdı, arı vurmuşdu, yoxsa yıxılıb əzmişdi onları, nə idisə, dodaqlar o qədər şişmişdi ki, inanın, maşının içərisində dodaqdan başqa heç nə görünmürdü. Sonra bu məsələni bir-iki yerdə danışdım. Dedilər, ay yazıq, yıxılmaq nədir, arı vurmaq nədir, dərd tapmaq nədir, silikon vurdurub dodaqları göyə qaldırıb, yerə endirmək dəbdir ey...

Mən də dedim, olsun da, dəb olsun, amma bu qədər?.. Vallah yəqin siz mən gördüyümü görməmisiniz, görsəniz, inanın ki, siz də sürücünün dodaq olduğunu zənn edərsiniz.

***Mətanət Məmmədova***

# Acı verən şirin...

Yaşamaq gözəldir, deyirlər. Həm də həyat çox şirindir. Bunları yaşadıqca duyur, hiss edirik. Bəli, həyat şirindir, yaşamaq gözəldir. Lakin o zaman gözəldir ki, onu sağlam şəkildə yaşaya, bütün gözəlliklərini duya bilirsən. Səhhətində nə isə problem olan insan xəstə olduğu müddətdə yalnız öz dərdləri, ağrıları ilə baş-başa qalır. Onun həyatın gözəlliklərini duymağa nə zamanı, nə həvəsi, nə də marağı olur. Səhərdən axşamadək ağrıları, dərman qəbulu, pəhriz yeməkləri ona günəşin doğma və qüruba enmə vaxtlarını unutdurur. Gecələrin yaraşığı, gözəlliyi olan yuxu isə ərşə qalxdığından gecələr ona gözəl yox, günün ən ağır, dözümsüz anı kimi gəlir. Odur ki, bu həyatın gözəlliyini duymaq istəyiriksə, birinci növbədə sağlamlığımızın qeydinə qalıb, xəstələnməməyə çalışmalıyıq. Məhz bu halda həyat gözəl və şirindir.





## 300 minədək...

Sağlamlığımızı əlimizdən alan, bizə narahat bir ömür bəxş edən xəstəliklərdən biri də diabetdir ki, bu gün ölkəmizdə artıq sayı 300 minədək olan şəkərli diabet xəstəsi var. Çünki onlar hansısa səbəblərdən artıq bu xəstəliyin daşıyıcılarıdır. Bəzən sadəcə şəkər xəstəliyi adlandırdığımız bu xəstəlik hər il dünyada təxminən bir milyon insanın ölümünə səbəb olan, kəskin ağırlaşmalarla müşayiət olunan, müalicəsi böyük vəsait tələb edən xroniki, həm də sürətlə artan bir xəstəlikdir. Beynəlxalq Diabet Federasiyasının məlumatına görə, əgər 2019-cu ildə dünyada şəkər xəstələrinin sayı 463 milyon nəfər idisə, hazırda bu rəqəm 537 milyondur. Statistik məlumatlar göstərir ki, təəssüf ki, Azərbaycanda da diabet xəstələrinin sayının artması müşahidə olunur. 2017-ci ildə müalicə-profilaktika müəssisələrinin qeydiyyatında, təqribən, 243 min diabet xəstəsi olduğu halda, hazırda bu rəqəm 300 minə yaxındır. Şəkərli diabet digər xəstəlikləri kəskinləşdirə, ana və uşaq sağlamlığına mənfi təsir göstərə bilir. Bu xəstəliyin yüksək artımı, eyni zamanda onun yaratdığı tibbi, sosial, iqtisadi, psixoloji və digər problemləri də qabardır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) 2006-cı ildə qəbul etdiyi xüsusi bəyannamədə şəkərli diabet "ağır xroniki xəstəlik" kimi səciyyələndirilib.

2006-cı ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilən qətnaməyə əsasən, 2007-ci ildən etibarən hər il noyabrın 14-ü BMT-nin Ümumdünya Diabet Günü kimi hesab olunur. Bu qətnamənin əsasında dövlətlər ilk dəfə olaraq, qeyri-infeksion xəstəlik olan diabeti dünya miqyasında sağlamlığa ciddi təhlükə mənbəyi sayaraq, İİV/QİÇS, vərəm, malyariya kimi infeksion xəstəliklərlə eyni səviyyədə qəbul etdilər. Qətnamə BMT-yə üzv dövlətləri bu günü təsdiq etməyə, həmçinin bütün millətləri diabetin qarşısını almaq və müalicə etmək üçün milli siyasət oriyentasiyasını hazırlamağa dəvət edib.

Bu faktları sadalamaqda məqsədim yuxarıda da vurğuladığım kimi, şəkərli diabetin adi yox, ciddi xəstəlik olduğunu bir daha nəzərə çatdırmaqla, bu xəstəliklə hər birimizin mübarizə aparmalı olduğunu anlatmaqdır. 300 min heç də kiçik rəqəm deyil. Hələ bu rəqəmin 1800-nün uşaq və yeniyetmələr olduğunu nəzərə alsaq, bu, daha qorxuludur və həyəcan təbilinin çoxdan çalınmalı olduğunu göstərən faktdır.

## Ona adi baxdıqca...

Bəlkə də çoxları mənimlə eyni fikirdə olar ki, bütün zamanlarda "şəkər xəstəliyi" deyiləndə ağlımıza çox da təhlükəli olmayan xəstəlik gəlib. Bu səbəbdən də ona adi bir xəstəlik kimi baxmışıq. Və bu adiliyin səbəbi isə fikrimcə, elə "şəkər" sözündən qaynaqlanıb. Çünki şəkər şirin deməkdir. Şirin isə düşüncələrimizdə təbii ki, müsbətlər sırasındadır.

Xəstəlik ağrı-acıdır, əzabdır. Acı dərmanlar, xəstəxanalarda uzun-uzadı müalicə almaq, aylar, illərlə yataqda qalmaqdır. Lakin biz şəkər xəstələrini adətən ayaq üstündə görmüşük. Elə buna görə də həm bu xəstələrin özləri, həm də yaxınları ona adi xəstəlik kimi baxırlar. Bəs bu xəstəlik nə edir? Ona adi baxdıqca, öz yerini daha da möhkəmləndirir. Hələ minlərlə qapılar döyüb, çağırılmamış qonaq kimi evlərə soxulub, yuxarı başa keçərək qonaq qismindən ev sahibliyi qisminə də keçir. Biz ona adi bir xəstəlik kimi baxdıqca o, bütün bədənimizə hakim kəsilir. Bir də baxırıq ki, artıq bu "şirin" xəstəlik acıdan başqa bir şey vermir bizə. Bir də baxırıq ki, biz artıq süfrəyə düzülən bütün nemətlərə əl uzada bilmirik. Bütün ədviyyatlarla hazırlanan yeməkləri yeyə bilmirik. Bir də baxırıq ki, bu "şirin" xəstəlik şirin olan hər şeyi əlimizdən alıb, azşəkərli məhsullarla qidalanmağa vadar edib bizləri. Pəhriz saxlamağa, günün müəyyən saatlarında yeyə bilməyə, yanımızda şəkərimizi ölçən cihaz gəzdirməyə vadar edib bizləri.

Hələ ilk zamanlarda məhz bunları müşahidə etsək də, elə bütün bunlara riayət etməməklə qarşıda gözləmədiyimiz yataq xəstəsinə çevriləcəyimizi, bu şirinliyin bizi daha hansı acılarla üz-üzə qoyacağını heç ağlımıza belə gətirmədən yaşayırıq. Yaşaya-yaşaya da bu xəstəliyin bir gün sağalması mümkün olan digər xəstəliyimizi acımıza, kədərimizə çevirəcəyini düşünmürük. Düşünmürük ki, şəkərli diabet xəstəsi olmasaydıq, filan əməliyyatımız, filan müalicəmiz çox uğurla nəticələnə bilərdi və biz həyatda qala-yaşaya bilərdik.

## Şəkərin ən yaxın dostu-stres

Dünyada 537 milyon insan şəkər xəstəliyindən əziyyət çəkir, dedik. Minlərlə insan isə bu xəstəliyi daşıdığından xəbərsizdir. Yaşayır, gəzir-dolaşır, yeyir-içir, lakin hələ də şəkər xəstəsi olduğu ağlına gəlmir. Aradabir baş ağrılarını, baş gicəllənmələrini, ürək bulanmalarını, qan təzyiqinin enmə-qalxmasını əsassız bir şey hesab edərək yaşayır. Bunlar üçün həkimə müraciət etmir, hansı ki, həkimə getməklə şəkərli diabet olduğunu bilər və dərhal onun qarşını almaqla ağırlaşmalara doğru yola çıxmaz.




Biz həmişə düşünmüşük ki, şəkər xəstəliyinin başlıca səbəbi şəkərli qidalarla bağlıdır. Lakin düşünmürük ki, xeyr, əslində şəkərli qidalarla deyil, həmin şəkərli qidaları yaxşı həzm edə bilməyən orqanlarımızla bağlıdır. Onların xəstələnməyə başlamasından xəbərsiz olmağımız şəkərli diabetin orqanizmimizə qanaq gəlməsi ilə nəticələnir. Ümumilikdə isə mütəxəssislərin fikrincə, şəkər xəstəliyi, şəkərli diabet - şəkərin qanda xroniki artımıdır. Diabetlə əlaqəli ağırlaşmaların hamısının səbəbi qlükozanın qanda yüksək olmasıdır. Şəkər xəstəsi qanda şəkərin miqdarını idarə edə bilərsə, şəkərli diabet xəstəlik yox, həyat tərzinə çevrilər ki, bununla da ağırlaşmaların qarşısını almaq olar. Buradan isə yenə də o qənaətə gəlmək olur ki, bəli, insan şəkərli diabet xəstəsi olduğunu bilərsə, qanında qlükozanın artmasının qarşısını ala bilər. Bu isə tək qidalanmaqla deyil, ümumi həyat tərzi ilə daha çox bağlıdır. Onlardan birini-stresi vurğulamaqla demək olar ki, bütün xəstəliklər kimi, şəkərli diabetin də ən yaxın dostu stresdir. Bu, şəkər xəstəliyi ilə bağlı ağıla gələn bəlkə də ən son fikir olsa da, lakin əslində xəstəliyin ilkin yaranma səbəbidir. Belə isə stresdən, həyəcandan, əsəbləşməkdən kənar olmaq lazımdır. Çünki bunlar orqanizmdə müəyyən xəstəliklərin yaranma səbəbidir.

## Həyat tərzini düzgün qurmayanda...

Biz həyat tərzimizi düzgün qura bilməyəndə bir çox xəstəliklərin qurbanı oluruq, bəli. Şəkərli diabet kimi. Oluruq bu xəstəlikdən asılı. İki tipdə olan bu xəstəliyin daşıyıcısı, əzablarını yaşayan, həyatın şirinliyindən məhrum olanlara çevrilirik. Ya birinci tip diabetlər üçün vacib olan gündəlik insulin inyeksiyalar, ya da ikinci tip diabetlərin istifadə etdiyi həblər vasitəsilə qanımızda qlükozanı norma çərçivəsində saxlamağa məcbur oluruq.

Beləliklə, dərman preparatlarından asılı vəziyyətə düşürük. Onları həmişə yanımızda gəzdirməyə məcbur oluruq. Çünki onlarsız özümüzü yaxşı hiss etmirik, hətta yemək yeməyə belə qorxuruq ki, birdən şəkərimiz qalxar. Bəzən isə ya yanımızda götürməməyimiz, ya da vaxtında qəbul etməməyimiz səbəbindən şəkərimiz qalxır, özümüzü pis edirik və bu, bir günümüzü əlimizdən alır. Həyatın gözəl bir gününü yaşaya bilmirik. Baş ağrıları, ürək döyüntüləri ilə günümüzü başa vurmaq məcburiyyətində qalır, səhəri gün isə bunun halsızlığını yaşamalı oluruq.

Birinci, düzgün həyat tərzi keçirməklə, evdənkənar qidalarla qidalanmamaqla bu xəstəliyin qarşısını ala bilərik. Ən əsası isə stresdən uzaq olmaqla, şəkərli diabeti özümüzdən uzaqlaşdıra, bununla həm özümüzü, həm ailə üzvlərimizi qorumuş olarıq. Bu halda həyatın gözəlliyini də dərindən duya-duya yaşaya bilərik.

Həyat gözəldir... Sağlam yaşadığımız müddətdə bunu dərk etmək istəməsək də, "belə də olmalıymış",- deyə düşünsək də, xəstələnəndə tam mənası ilə anlayırıq. Anlayırıq ki, həyatı xəstəliyin verdiyi ağrı-acı ilə yaşamaqdan çətin heç nə yoxdur. Anlayırıq ki, yaşadığımız gün deyil, ağır, ötüb-keçməyən ildir, əsrdir.

Odur ki, bütün bəşəriyyət sağlam olmaq, sağlam yaşamaq üçün mübarizəyə qalxmalıdır. Hər şeyi bir kənara qoyub sağlamlığımız üçün bütün maneələri əllərimizlə özümüzdən kənarlaşdırmalıyıq. Təbiətdə, ətraf aləmdə, iş yerində, evdə sadəcə ruhumuzu oxşayan, sağlamlığımıza xidmət edəcək anlarla yaşamalıyıq. Həyat məhz bu zaman öz gözəlliyi ilə bizim ola bilər. Bu gün haqqında söhbət açdığımız şəkərli diabet xəstəliyinin də həyatımızın gözəlliyinə kölgə saldığını nəzərə alıb onunla mübarizə aparmaq və acı verən "şirin" həyata sahib olmamaq diləyilə...

***Mətanət Məmmədova***

# Hitlerin nəvəsi Almaniyanın rəhbərliyinə gətirilir

## Heinrich Hitler Almaniyada hakimiyyətə gələcəyi təqdirdə bəşəriyyət hər cür fəlakətə, vəhşiliyə və qəddarlığa hazır olmalıdır



Dünyada baş verən insan qətliliamlarının, dağıntı və fəlakətlərin əsas müəllifləri insanlıq hissini itirən, bəşəri dəyərlərdən uzaq olan varlıqlar olublar. Onlar görkəmcə adi insanlardan fərqlənməsələrdə, daxilən vəhşi heyvani xislətə malik olublar. Çin imperatoru Sin Şi Xuandi, Qay Yuli Sezar Kaliqula, Böyük Britaniyanın siyasi lideri Oliver Kromvel, 1789-cu il Fransa inqilabının rəhbəri Fransua Mari İsidor de Robespyer, Rus çarı İvan Qroznıy, Çini lideri Mao Tszedun, Monqol-tatar imperiyasının qurucusu Cingiz xan, 1971-ci il çevrilişi nəticəsində hakimiyyətə gəlmiş Uqanda diktatoru İdi Amin Dada, Belçikanın və Konqo hökmdarı İkinci Leopold, Faşist Almaniyasının hökmdarı Adolf Hitler İtaliya lideri və SSRİ rəhbəri olmuş İosif Stalinin də adlarını bu siyahıya əlavə etsək, o zaman faktlara istinadən qeyd etmək olar ki, məhz bu baş kəsənlərin öldürülsünlər" əmrləri nəticəsində bəşəriyyətin 550 milyona yaxın insanı yarımçıq talelər yaşayıblar. Araşdırmalarla təsdiq olunur ki, bu vəhşi liderlər hələ uşaq ikən öldürmək, dağıtmaq haqqında düşünüb və düşündüklərini bəzən gizli, bəzən isə açıq formada icra ediblər. Belçikanın kralı və Konqo hökmdarı olmuş İkinci Leopold hələ 6 yaşı olarkən it və pişikləri kütləvi şəkildə zəhərləməkdən zövq almış, 9 yaşı olarkən atasının yatan iki dostunu kəsici alətlə öldürmüşdür. Sonralar Belçikanın və Konqonun hökmdarı olarkən vəhşi əməllərini minlərlə insanı öldürməklə davam etdirmişdir. O, 1865-ci ildə taxta çıxıb və hakimiyyət də yerini möhkəmləndirdikdən sonra sadə insanlı öldürməklə kifayətlənməyib, işğal altında saxlanılan Konqo əhalisinə misli görünməmiş divan tutmuşdur. Leopold Afrikada Belçikanın ərazisindən 76 dəfə böyük olan əraziləri zəbt etmiş və qəddar üsul idarəsi ilə milyonlarla Konqo vətəndaşını öldürmüş, şəhər və qəsəbələrini xarabazarlıqlara çevirmişdir. Faşistlərin rəhbəri, sonralar Almaniyanın lideri olmuş Adolf Hitlerdə hələ uşaq ikən adam öldürmək, insanlara əziyyət vermək və xarabazarlıqlara çevrilən yaşayış məskənlərini görməkdən zövq almışdır. 12 yaşında ailəvi dostluq etdikləri fermer dostlarının evlərinə od vurub yandırmaqla 7 nəfərin həyatına son qoymuşdur. Faşist Almaniyasının rəhbəri olduqdan sonra Adolf Hitler uşaq ikən öldürdüyü 7 nəfərin sayını 70 milyona çatdırılmasında rol almışdır. Ümumiyyətlə gəlinən qənaət ondan ibarətdir ki, Avropa bəşəri varlıqları məhv etmək, şəhər və qəsəbələri dağıtmaq, tarixi memarlıq nümunələrini yer üzündən silmək üçün əsas yetişdirilən torpaqlar olub. Xüsusilə Almaniya və Fransa torpaqları insanlığa düşmən kəsilən ərazilər olub. Daim bu ərazilərdən dünyaya təhdidlər olub, hədə və məsajlar ünvanlanıb. Faşizm bəşəri bəla olmaqla insanlıq üçün ən qorxulu kabus olduğunu desək səhv etmərik. Düşünmək olar ki, artıq nasizm yoxdur, faşizm tamamilə sıradan çıxarılıb.

### Almaniya hökuməti hər il dövlət büdcəsindən nasist təşkilatlarına milyardlarla dollar vəsait ayırır

Təəssüf hissi ilə vurğulamaq lazımdır ki, bu gün də Almaniya, Fransa, Niderland və digər ölkələrdə nasizm dərnəkləri tədricən dirçəlir və dünyanı yeni müharibələr və münaqişələrlə hədələyir. Hətta Almaniya hökuməti hər ilə dövlət büdcəsindən nasist təşkilatlarına milyardlarla dollar vəsait ayırır. Bu heç də hazırkı O. Şolts hakimiyyətinin tamamilə nasizmə təslim olması anlamı yaratmamalıdır. Sadəcə Hitlerin qurduğu sistem tədricən oyanır və güclənir. Məhz gücün qarşısında duruş gətirə bilməyən hazırkı hakimiyyət tədricən faşizmə təslim olur. Eyni ilə iyirminci əsrin əvvəllərində olduğu kimi. O dövrdə də faşizm ideologiyası tədricən formalaşıb və inkişaf etmişdir. 1921-ci il də nasistlərin sıralarında 350 minə adam təmsil olunurdu. Dəfələrlə yerli hakimiyyət faşist ideologiyasının təmsilçilərini sıradan çıxartmağa çalışsa da, istəklərinə nail ola bilməmişlər. Faşist hərəkatı siyasi partiyaya çevrildikdən sonra bir qədər də güclənmiş və mübarizliyinə görə daha amansız xarakter almışdır. Hitlerin qurduğu sistem yarandığı vaxtdan bir neçə dəfə dövlət çevrilişlərinə cəhdlər göstərdilər. Lakin bütün cəhdləri amansızlıqla yatırıldı. Onlarla nasist öldürüldü, yüzlərlə nasist isə həbsxanalara atıldılar, lakin yenə də mübarizlərindən geri çəkilmədilər. Nəhayət, növbəti dövlət çevrilişlərinin biri uğurlu sonluqla yekunlaşdı. İtaliyada Mussolini kral III Emmanuilini taxtdan uzaqlaşdırmaqla hakimiyyəti ələ keçirdi. 1922-ci il dekabrın 15-də Mussolini başda olmaqla "Böyük faşist Şurası yaradıldı. O, İtaliya faşist iyerarxiyasının ali hakimiyyət orqanı idi. BFŞ həm qanunvericilik, həm də icraedicilik səlahiyyətlərini öz üzərinə götürmüşdü.Mussolini gəncləri faşist partiyası ətrafında toplamaq üçün bütün gənclər və uşaq təşkilatlarını yarım hərbi gənclər təşkilatında-İtaliya fəxri keşikçisi təşkilatında birləşdirdi. Təşkilatın başlıca şüarı - "İnanmaq, tabe olmaq, döyüşmək!" idi. Sonra məhz bu şüarla italiya faşistləri Almaniya lideri olan Adolf Hitlerin rəhbərliyi ilə bəşəriyyətə uzun əsrlər unudulmayacaq faciələr yaşatdılar. Almaniyada ilk faşist təşkilatı 1919-cu il yanvarın əvvəllərində Anton Drekslerinin rəhbərliyi ilə "Alman fəhlə partiyası" adı ilə yaradılsada sonradan hərəkatın adı dəyişdirilmişdir. Daha doğrusu yeni yaranan "Alman nasional sosialist fəhlə partiyası"nın rəhbəri Adolf Hitler seçilmişdi. 1923-cü ilin noyabrında nasistlər Veymar respublikasına qarşı "milli inqilab", "pivəxana qiyamı" təşkil etməyə cəhd göstərmişdilər. Qiyam baş tutmamışdı. "Pivəxana qiyamı"nın təşkilatçılarından biri kimi Hitler tutularaq 5 il həbsə məhkum edilmişdi. Hitlerin həbsindən sonra alman faşist hərəkatında səngimə baş verdi. Partiya daxilində ikitirəlik yarandı. Hitlerin razılığı olmadan 1924-cü ilin avqustunda keçirilən qurultayda NSDAP və DAP "Azad nasional-sosialist partiyası" adı altında birləşdilər. Lyudendorf, Grefe və Qriqori Ştrasserlər partiyanın rəhbərliyinə seçildilər. Həbsxanadan çıxan A.Hitler 1924-cü ilin dekabrında NSDAP-ın bərpa olunduğunu elan etdi. Hitlerin təşəbbüsü ilə hələ 1921-ci ildə yaradılmış "Hücumçu dəstələri (SA)" və 1923-cü ildə təşkil olunan "Müdafiə dəstələri (SS)" genişləndirildi. 1927-ci ildə isə H.Himmler SS-in reyxsfüreri təyin olundu. Hitler Adolf (Şiklqruber) (1889-1945)- Almaniya nasist partiyasının və dövlətinin başçısı. Avstriyanın Braunau şəhərində anadan olmuşdu. 1913-cü ildə Münxenə köçmüşdü. O, 1918-ci ildə Bavar Sovet Qırmızı ordusunun tərkibində olan ikinci korpusda yefreytor olmuşdur. Millətçi və antisemit "nəzəriyyə"lərin qatı tərəfdarı olması ilə fərqlənmişdi. 1919-cu ilin payızında o, A.Dreksler in təşkil etdiyi "Alman fəhlə partiyasına" (sonradan "Alman nasional-sosialist fəhlə ittifaqı") daxil olmuşdu. 1920-ci ildən "Alman nasional-sosialist fəhlə partiyası"nın lideri (füreri) olmuşdu. 1923-cü ildə "pivəxana qiyamı" adlandırılan dövlət çevrilişi cəhdinə görə həbs olunmuşdur, Həbsdə olarkən tanış olduğu Rudolf Gessle birlikdə "Mayn kampf ("Mənim mübarizəm") kitabını yazmışdı. Kitab tarixə faşist təcavüzkarlığının proqram sənədi kimi daxil olmuşdur. Bu kitabın nəşrindən sonra A. Hitler Almaniyanın ən populyar və varlı adamlarından birinə çevrilmişdi. Ölkədə böyük nüfuz qazanması A.Hitlerə hakimiyyəti ələ keçirməyə həvəsləndirdi. A.Hitler 1933-cü ildə Üçüncü reyxin, 1934-cü ildə isə totalitar nasist diktaturasının reyx kansleri, və nəhayət rəhbəri seçilmişdir. Dünaynın qara günləri də bundan sonara başlamışdır. 1939-cu il avqustun 23-də Almaniya ilə SSRİ arasında 10 il müddətinə bir-birinə hücum etməmək haqqında müqavilə imzalansa da sonradan Hitler razılaşmanı pozaraq 141-ci il uyulun 22-də SSRİ-yə hücum etdi. O günə qədər artıq faşistlər Polşa daxil olmaqla bir neçə Avropa ölkəsini işğal etmişdilər. Bu elə məqam idi ki, İngiltərə, Fransa, Avstraliya, Yeni Zelandiya, Hindistan, Kanada Almaniyaya qarşı müharibəyə qoşulmuşdular, ABŞ isə bu gün ki, hiyləgər və məkrli siyasətinə uyğun olaraq o zaman özünü bitərəf dövlət elan etmişdir. Sonradan ABŞ-da müharibəyə qoşulmaq məcburiyyətində qaldı və beləliklə müharibədə döyüşən dövlətlərin sayı 60-a yüksəldi.

### İkinci Dünya müharibəsində 1,8 milyard insan iştirak etmişdir

İkinci Dünya müharibəsində dünya əhalisinin 85 faizi, yəni 1, 8 milyard insan iştirak etmişdir, onlardan 120 milyonun əlində silah bir-birini məhv etməyə çalışmışlar. Ən qanlı savaş Almaniya ilə SSRİ arasında baş verdi. A.Hitlerin "Barbarossa" strateji planına görə, üç həftə ərzində SSRİ məğlubiyyətə uğramalı idi. Bu məqsədlə faşist Almaniyası 6 milyona yaxın canlı qüvvə olmaqla 190 diviziya, 4300 tank, 47 min top və minaatan, 4980 döyüş təyyarəsi və 192 döyüş gəmisindən ibarət qüvvə ilə SSRİ-nin ilhaqı üçün hücuma keçdilər. Faşistlər elə hesab edirdilər ki, böyük əraziyə və çoxmillətli dövlətə malik sovetlər hücum etməklə xalqlar mərkəzi hakimiyyətlə əlaqələrini kəsib, müstəqilliyə və suverenliklərinin qorunmasına can atacaqlar. A.Hitler bu barədə demişdir: "Rusiyanın geniş ərazisində yaşayan xalqlara münasibətdə siyasətimiz istənilən formada fikir ayrılığı və parçalanmanı təqdir etməkdir". Lakin nasistlərin uzaqlara hesablanan planları iflasa uğradı. O zaman SSRİ-ni öz dövlətləri hesab edən xalqlar vahid bayraq altında birləşməklə faşizm kimi yırtıcı düşmənə qarşı birgə mübarizə apardılar. Amansız müharibə SSRİ-nin faşizm üzərində qələbəsi ilə başa çatdı. İkinci Dünya müharibəsi başa çatdıqdan sonra məlum olmuşdur ki, müharibə zamanı 70 milyondan çox adam həyatını itirib, 200 nəfər insan isə yaralanıb. Ölən insanlardan 30 milyonu SSRİ-nin, 13,6 milyonu Almaniyanın, 6 milyonu Polşanın, 5 milyonu Çinin, 2,5 milyonu Yaponiyanın, 1,7 milyonu Yuqoslaviyanın, 600 mini Fransanın, 370 mini İngiltərənin, 300 mini ABŞ-ın və digər dövlətlərin payına düşmüşdü. Böyük Vətən Müharibəsində qələbənin əldə olunmasında Azərbaycan xalqının da müstəsna payı olmuşdur. Lakin 350 minə yaxının insanın itkisi, on minlərlə övladının yaralanması, əlil olması bahasına. Müharibədə azərbaycanlılar böyük qəhrəmanlıq və şücaət göstərmişlər. Bu qəhrəmanlıqların səsi sorağı bütün dünyaya yayılmışdır. Mehdi Hüseynin, Hüseynbala Əliyevin, Həzi Aslanovun, Qafur Məmmədovun və digər bu kimi qəhrəmanların göstərdikləri şücaətlərdən qalaq-qalaq kitablar yazılıb, məqalələr dərc olunub. Azərbaycan qələbənin əldə olunmasında nəinki insan resursları, eləcə də yeraltı yerüstü sərvətləri ilə də yardımçı olmuşdur. Müharibə zamanı Azərbaycan sovet ordusunu fantastik formada neft və neft məhsulları ilə təchiz etmişdir. Hərəkət edən təyyarənin, tankın, avtomobilin 75 faizi Azərbaycan neftinin tədarükü hesabına hərəkət etmişdir. İkinci Dünya müharibəsindən sonra Almaniya ordu saxlamaqdan, hərbi texnika istehsal etməkdən və onu dünya bazarına çıxarıb satışını təşkil etməkdən məhrum edilmişdir. Bununla bağlı SSRİ, ABŞ və Böyük Britaniya liderlərinin 1945-ci il Yalta görüşündə razılaşma əldə edilmiş və bununla bağlı sənəd imzalamışlar. Lakin SSRİ-nin süqutundan sonra imzalanan saziş aktuallığını itirdi. Hazırda Almaniya öz hərbi sistemini qurmaqdadır. Daha doğrusu hərbi gücünə görə Almaniya heç də digər Avropa dövlətlərindən geri qalmır. Müasir hərbi silah sursat istehsal etməklə onu digər dövlətlərə də satışını həyata keçirir.

### Növbəti dönəm üçün Almaniyada hakimiyyətdə Hitlerin nəvəsi B. Hitler olacaq

Almaniyanın getdikcə daha çox faşist ideologiyasına meyil göstərməkdədir. Hətta Almaniya ilə yanaşı Hitler dönəmində olduğun kimi, Avropanın bəzi bölgələrində də faşist dərnəklərinin yaradılması işi aparılır. Bunla bağlı hökumət 20 milyard avro vəsaitdə ayırıb. Bəzi hallarda Almaniyanın dünyada gedən münaqişələri, müharibələri qızışdırması, onları maliyyə və hərbi silah sursatla təchiz etməsi də məhz yeni yaranan nasistlərin sifarişi və dəstəyi nəticəsində baş verir. Almaniya dövləti faşist ideologiyasının məqsəd və vəzifələrinin gənclər arasında daha geniş təbliğ edilməsi məqsədi ilə Adolf Hitlerin qələmə aldığı "Mayn kampf ("Mənim mübarizəm") kitabını yeni formada çap etməklə yayımını həyata keçirir. Bütün bunlar isə təhlükəlidir. Çünki dünyada baş verən müharibələrin, münaqişələrin statistikası təsdiq edir ki, son iki yüz il də bəşəriyyətə ən böyük faciələri, insan qırğınlarını Almaniya yaşadıb. Yəni Almaniya bəşəriyyətə və insanlığa təhlükə yarada biləcək dövlətdir. Günün birində bu təhlükəli rejim hansısa ölkəyə hücum etsə, bu heç də təəccüblü görünməyəcək. Çünki insanları kütləvi şəkil də öldürmək, şəhər və qəsəbələri varan edib, xarabazarlıqlara çevirmək, faşizmin yetişdirdiyi Almaniya hakim rejiminin əsas niyyəti, vəzifəsi və məqsədidir. Digər tərəfdən nəzərə almaq lazımıdır ki, hazırda Almaniyada nasizm partiyaya çevrilir və onun rəhbəri isə A.Hitlerin nəvəsi Heinrich Hitler olacaq. Bu isə onu deməyə əsas verir ki, indiki hakimiyyətin sonuna az qalıb. Və növbəti dönəm üçün Almaniyada hakimiyyətdə Hitlerin nəvəsi H. Hitler olacaq. Ona görə də, bəşəriyyət hər cür fəlakətə, vəhşiliyə və qəddarlığa hazır olmalıdır.

***İLHAM ƏLİYEV***

# Mixail Belyayev: “İrəvan Azərbaycanla sülhpərvər addımlar atmağa məcburdur”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb*




**Tanınmış rusiyalı politoloq Mixail Belyayev ”Moskva-Baku” portalına müsahibəsində İrəvanın niyə Azərbaycanla sülhsevər addımlar atmağa məcbur olduğunu və dediklərini həqiqətən də həyata keçirilib-keçirilməyəcəyini şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.**





***- Mixail Kimoviç, son günlər Ermənistan tərəfi növbəti dəfə Azərbaycanı Zəngəzur dəhlizi boyunca sadələşdirilmiş sərhəd və gömrük prosedurları ilə təmin etməyə hazır olduğundan danışıb. Bakı hələlik susur. Bundan əlavə, rəsmi İrəvan sülh sazişinin bütün bəndlərini yekunlaşdırmağa və sənədi imzalamağa hazır olduğunu bəyan edir. Lakin Azərbaycan Xarici İşlər Nazirliyinin rəhbəri ötən həftə bir daha bəyan etdi ki, Ermənistan Konstitusiyası dəyişdirilmədən sənədin imzalanması mümkün deyil...***

- Vəziyyətə iki mövqedən yanaşmaq olar. Şəxsən mən görürəm ki, iki ölkə arasında münasibətlərin tənzimlənməsi ilə bağlı əsas məsələ, tutaq ki, sənədləşmə məsələləri həll olunmamış, diqqəti ikinci dərəcəli məsələlərin həllinə yönəltməyin mənası yoxdur. Fundamental məsələlər həll edilmədikdə, nəyinsə yanlış getməsi riski var. Və burada təhlükəsizlik məsələsi ilk növbədə ortaya çıxır. Həm Azərbaycan, həm də Ermənistan üçün.

Siz həmçinin İrəvanın qarşı tərəfdən təkliflərinə sülh üçün tikinti bloku kimi baxa bilərsiniz ki, bu da daha fundamental məsələlərin həllinə xidmət edə bilər. Təbii ki, pozitivlik və təkliflər heç nə olmamasından yaxşıdır. Amma mən təkid edirəm ki, yeganə düzgün və effektiv yol sülh müqaviləsinin əsas məsələlərinin həllidir. Və bu fundamental məsələyə Ermənistan hakimiyyətinin ölkə Konstitusiyasının dəyişdirilməsi daxildir.

Görürsünüzmü, problem ondadır ki, Ermənistan tərəfindən mütəmadi olaraq müsbət təkliflər verilir, irəliyə doğru addım atılır, xoş niyyət nümayiş etdirilir, amma diplomatik dildən yaxşı anlayan hər kəs bilir ki, onun arxasında qeyri-müəyyən resepturalar, əslində, sadəcə nümayiş effektindən başqa bir şey deyil və zamanla dayanmaq istəyidir. Və oxları Bakıya çevirir, ”biz bunu təklif etdik, lakin Azərbaycan bundan imtina edir”. Guya Bakı həll yollarını təklif edir, İrəvan isə ”ilk” addımları atır. Amma sonda əslində təkliflərdə konstruktivlik yox, davamlı qeyri-müəyyənliklər var. Və problemlər yaranır.

İrəvanın Bakıya Azərbaycan dövlət nömrə nişanlı avtomobillərin sadələşdirilmiş sərhəd və gömrük nəzarətindən keçməsi ilə bağlı təklifləri ilə bağlı ağlabatan sual yaranır. Erməni tərəfi həqiqətən sözdə deyil, əməldə məhz bu maşınların və insanların təhlükəsizliyini təmin etməyə hazırlaşırmı? Axı Ermənistanda revanşist əhval-ruhiyyə güclüdür. Və heç bir təminat yoxdur ki, kimsə Ermənistan ərazisində azərbaycanlılara qarşı ciddi təxribat törətmək istəməyəcək.

Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il noyabrın 9-10-da imzaladığı üçtərəfli bəyanatın 9-cu bəndində qeyd edilir ki, bu nəqliyyat marşrutu üzrə avtomobillərin və insanların yüklərinin təhlükəsiz keçidinə nəzarət etmək məqsədilə Ermənistan ərazisindən keçməklə Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası hissəsi arasında Rusiya FTX-nin sərhədçiləri dayanır. Amma Ermənistan bu məqama əməl etməkdən imtina edir. Ona görə də, güman edir ki, prinsipcə, Azərbaycan hətta real təhlükəsizlik zəmanəti olmadan sadələşdirilmiş giriş və yoxlama prosedurlarına razılaşa bilər. Ermənistan hakimiyyətinin ölkə Konstitusiyasının dəyişdirilməsi mövzusuna gəlincə, bu olmadan Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanması qeyri-mümkündür, çünki mətndə hüquqi əhəmiyyətli pəncərələr, gələcəkdə Azərbaycana zərər verə biləcək pəncərələr olaraq qalacaq.

Konstitusiyanın mövcud olması ondan ibarətdir ki, dövlətin həyatı, mövcudluğu ən əlverişli və təhlükəsiz şəkildə, inkişafda davam etsin. Konstitusiya dövlətin həyatında əsasdır. Əgər Ermənistan həqiqətən də Azərbaycanla dövlətlərarası münasibətlər qurmaq niyyətindədirsə (əslində ilk növbədə öz dövlətinin xeyrinə və onun inkişafı naminə), o zaman Konstitusiyanı dəyişməli, Azərbaycana qarşı ərazi iddialarını oradan çıxarmalıdır. Konstitusiyaya dəyişikliklər adi təcrübədir.

Və əgər Ermənistan Konstitusiya Məhkəməsi sentyabr qərarında ölkənin Müstəqillik Bəyannaməsində təsbit olunmuş və Konstitusiyanın özündə əksini tapmayan milli məqsədlərin hüquqi qüvvəyə malik olmadığı barədə qərar çıxarıbsa, bu, Azərbaycan üçün kifayət qədər qeyri-şəffaf vəziyyətdir. Ermənistan hakimiyyətinin Konstitusiyanın dəyişdirilməsi ilə bağlı vəziyyətdən qaçmaq üçün bu qərara istinad etməsi isə Azərbaycanın şərtlərinə əməl etməmək cəhdidir. Bəyannamədə qeyd olunanların tətbiq olunmadığı halda bütün bəyanatlar və qərarların tam hüquqi təmizliyinə şübhə edərdim. Əgər sənəd varsa, o yerinə yetirilməlidir. Və onu sadəcə olaraq ləğv etmək mümkün deyil. Bu, Ermənistanın Müstəqillik Bəyannaməsinə də aiddir.

***- Eyni zamanda, müqayisə üçün deyək ki, "Qarabağ klanı" Azərbaycana qarşı çox aqressiv siyasət yürüdürdü. Azərbaycan əraziləri işğal olunmuşdu. Paşinyan hakimiyyətə gələndən Azərbaycana qarşı da aqressiv bəyanatlar verib. Lakin İkinci Qarabağ müharibəsindən sonra İrəvan hələ də Azərbaycanla sülhsevər addımlar atır. Bu, sərhədin delimitasiyası prosesinin başlanğıcıdır və digər nümunələr də var. Bu dinc addımları necə izah edə bilərsiniz?***

- İrəvan dinc addımlar atmağa məcburdur. Yenə də, görünür, özünüqoruma instinkti mövcuddur. Ermənistan hakimiyyəti başa düşür ki, bəzi qırmızı xətlər var ki, onları keçməmək daha yaxşıdır və əks halda vəziyyət onlar üçün mənfi istiqamətdə inkişaf edəcək. Ona görə də onlar müəyyən dinc addımlar atmalıdırlar. Onlar başa düşürlər ki, növbəti silahlı münaqişə ssenarisi hələlik Ermənistana yaxşı heç nə gətirə bilməz. Yerevan indi tammiqyaslı xarici dəstəyə arxalana bilməz (baxmayaraq ki, Ermənistan bu və ya digər dərəcədə fəal şəkildə silahlanır).

Hər halda Qərb fəal şəkildə kömək etməli olacaq, amma indi Ermənistanın vaxtı yoxdur. İndi Qərbdə başqa arqumentlər var, deyirlər, Rusiyaya qarşı ikinci cəbhə açmaq, onu başqa münaqişəyə cəlb etmək yaxşı olardı. Amma göz qabağındadır ki, Qərbdə Ukraynaya xərclənən vəsaitlə bağlı sosial gərginlik qızışır- müxtəlif ölkələrdə vətəndaşlar vəziyyətdən getdikcə daha çox narazılıq edirlər. Yaxın Şərq münaqişəsi də var. Və Qərbə başqa bir münaqişə gətirilərsə, sosial gərginlik partlayışa çevrilə bilər.



***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
6 noyabr
2024-cü il

# “Məktəb idarəetməsinə valideynlərin cəlb edilməsi vacibdir”



*EKSPERT FİKRİ*

**“Müəllim, direktor və direktor müavinləri vəzifə bölgüləri normalara əsasən müəyyənləşdirilib. Bütövlükdə sözügedən istiqamətdə hüquqi baza prosesi tənzimləyir. Eyni zaman hüquqi baza beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanıb və məktəbdaxili qaydalarda lazımi bütün məqamlar öz əksini tapıb”. Bu sözləri SİA-ya açıqlamasında fəlsəfə doktoru, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü İlqar Orucov deyib.**

O bildirib ki, tədrisin keyfiyyətinin yüksəldilməsi məktəbin qarşısında duran başlıca vəzifələrdən biridir: ”Son illərdə kifayət qədər yaxşı nümunələr ortaya qoyulub. Tədrisin keyfiyyətinin yüksəldilməsi üçün çox vacib olan keyfiyyətli müəllim, eyni zamanda məzmun, dərslik kimi mühüm məsələlər paralel şəkildə inkişaf etdirilməlidir.

Müəllimlərin bilik və bacarıqlarının yüksəldilməsi məqsədilə tətbiq olunan sertifikasiya prosesi də məhz təhsilin keyfiyyətinin artırılmasına hədəflənib. Məktəb direktoru rəhbər şəxs olaraq məktəbdə baş verən bütün proseslərə cavabdehdir. Tədrisin keyfiyyətindən tutmuş texniki işlərə qədər hər bir proses məktəb direktorunun səlahiyyətindədir. Prosesi tənzimləyən normalar, qanunvericilik var və işlər də bu çərçivədə aparılmalıdır.

Təhsilin səviyyəsinin yüksəldilməsi pedaqoji heyətin peşəkarlığından asılıdır. Həmçinin təhsilin subyektlərindən biri olaraq valideynlər də burada mühüm rola sahibdir. Bu baxımdan da məktəb idarəetməsinə valideynlərin cəlb edilməsi vacibdir”.

*Səbinə Hüseynli*

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Sabirabadda bir ailənin 4 üzvü yol qəzasında xəsarət alıb



Sabirabad rayonu ərazisində motosiklet və ”VAZ-2107” markalı minik avtomobilinin toqquşması ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Hadisə axşam saatlarında Sabirabad şəhəri İlham İsgəndərov küçəsində qeydə alınıb. Hadisə nəticəsində xəsarət alan Zamin Həsənov, Nuhu Həsənli, Tünzalə Həsənova və Sərfinaz Həsənova Sabirabad Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Onlara təcili təxirəsalınmaz tibbi yardım göstərilib. Faktla bağlı araşdırma aparılır.



## Qumara görə hər şeyini itirmişdi, son villasını da 10 milyon dollara satışa çıxardı...

Son illər xoşagəlməz vərdişlərinə və səhhətindəki problemlərə görə tez-tez gündəmə gələn türkiyəli müğənni Sərdar Ortaç maddi çətinliklər səbəbindən son evini də satmaq qərarına gəlib. Türkiyə mediasının yazdığına görə, tanınmış müğənni İstanbulun Sarıyer ərazisində yerləşən lüks villasını 10 milyon dollara satışa çıxarıb.

Qeyd edək ki, Sərdar Ortaç bir müddət əvvəl açıqlamasında qumara görə 15-ə yaxın evini itirdiyini bildirmişdi.

*Mətləb*

# Qan damarlarının əsas düşməni yağlı ət və ya piy deyil, şəkərdir...



Zəif qidalanma infarkt və ya insult yarada bilər. Amma bəzi məhsullar təhlükəlidir, çünki onlar qan damarlarının tıxanmasına səbəb olur. SİA-nın əldə etdiyi məlumata görə, bunu kardioloq Anna Korenevіç qeyd edir. O qeyd edir ki, sadəcə bir şey yeyirsinizsə və pəhrizinizi izləmirsinizsə, əlavə funt qazana eləcə də qan damarlarınızı lövhələrlə bağlaya bilərsiniz.

Həkimin sözlərinə görə, qan damarlarının əsas düşməni yağlı ət və ya piy deyil, şəkərdir. Lövhələrin meydana gəlməsinə səbəb olan budur. Beləliklə, Korenevіç iddia edir ki, hər bir konfet bədən üçün zərərlidir. Və bu, təkcə artıq çəki haqqında deyil, həm də ateroskleroz və qan damarları ilə bağlı problemlər haqqındadır. O, aydınlaşdırıb ki, şəkər nəinki qan damarlarını məhv edir, həm də görünüşü korlayır, dərinin sallanmasına və hiperpiqmentasiyaya səbəb olur.

*Nazlı Almuradova*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**